www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 may 2018-ci il Çərşənbə axşamı № 100 (6989) Qiymıəti 60 qəpik

**Xəbər**

## Sabirabadda qəzada 6 pambıqçı qadın öldü

yazısı səh.15-də

**Gündəm**

### Baytarlıq Xidməti rəisinin şok maxinasiyası



Ətlik mal-qara necə "damazlıq" olur?

yazısı səh.6-da

### Heydər Əliyevin 95 illiyi necə qeyd olunur...

yazısı səh.3-də

### Şuşasız 26 il

yazısı səh.2-də

### Azərbaycan-Aİ əməkdaşlığında daha bir önəmli addım

yazısı səh.9-da

### Novruz Məmmədovun yerinə təyinat nə zaman olacaq...

yazısı səh.4-də

### "Bir çox nazirlik və digər qurumlarda ciddi kadr çətinlikləri var" - Qubad İbadoğlu

yazısı səh.12-də

### Yeni kadrlar media ilə necə işləyəcəklər - iki rəy

yazısı səh.6-da

### Dərman mafiyasına qarşı daha bir əməliyyat - həbslər...

yazısı səh.12-də

### Fəzail Ağamalı vəzifə təklifi almayan deputatlar haqda danışdı

yazısı səh.5-də

### Erməni ilə ailə qurmağa qanun və din nə deyir...

yazısı səh.7-də

### Hüseyn Abdullayev siyasi məhbus elan oluna bilərmi...

yazısı səh.14-də

### İşğalçı ölkə üçün kritik gün

yazısı səh.11-də

## İrəvana qarşı Kremlin yeni təhdidi - çempionat bitən kimi...

# "MOSKVA QİSAS ALACAQ!.." - ERMƏNİSTANDA REVANŞ PANİKASI

Putin and içəndən bir gün sonra işğalçı ölkə özünə 1-ci şəxsi seçməlidir; **erməni analitiklər həyəcan təbili çalır:** "Kreml bizi qan gölündə boğmaq istəyir"; "Hadisələrin istənilən inkişaf ssenarisinə hazır olmalıyıq..."




yazısı səh.8-də

## Üç sabiq məmurun fəaliyyəti yoxlanır - ağır cəza olacaq

Səlim Müslümovun, Heydər Əsədovun və Əli Həsənovun rəhbərlik etdikləri qurumlarda total araşdırmalar başlayıb; dövlətin milyardlarla manatını oğurlamış sabiq nazirlər təlaşda

yazısı səh.12-də



*Qüdrət Həsənquliyev:*

**"Son 30 ildə torpaqlarımızı işğaldan azad etməyimiz üçün ən əlverişli imkan yaranıb"**

yazısı səh.7-də



*Əkrəm Həsənov:*

**"AzTV sədrinə dair ittihamlar üzrə cinayət işi başlanıb, araşdırma aparılmalıdır"**

yazısı səh.5-də



*Əli Həsənov:*

**"Azərbaycanda söz və mətbuat azadlığı təmin olunub"**

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 100 (6989) 8 may 2017

# Əli Həsənov: "Azərbaycanda söz və mətbuat azadlığı təmin olunub"

## "Qanunvericilik QHT-lərin də azad və sərbəst fəaliyyət göstərməsini təmin edir"

**"Azərbaycanda söz və mətbuat azadlığı təmin olunub". APA-nın məlumatına görə, bunu Bakıda keçirilən Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin 15-ci iclasında siyasi dialoq və islahatlar mövzusunda çıxış edən Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bildirib.**



Ə. Həsənov deyib ki, Azərbaycanda istənilən şəxs müvafiq dövlət qurumuna xəbərdarlıq edərək qəzet yarada bilər: "Elektron sayt yaratmaq üçün isə domen almaq kifayətdir. Əhalinin 80 faizi internet istifadəçisidir. Sosial şəbəkə istifadəçilərinin sayı 3 milyon nəfərdən artıqdır. 50-dən artıq televiziya və radio kanalı fəaliyyət göstərir. KİV-in sayı isə 5 min 100-ə çatıb. Prezident İlham Əliyev hesab edir ki, ölkədə siyasi islahatlar iqtisadi islahatlarla bərabər aparılmalıdır".

**"Şərqdə ilk dəfə 100 il əvvəl demokratik cümhuriyyət olan Xalq Cümhuriyyəti yaradılıb" - deyə, Əli Həsənov bildirib.**

**Ə. Həsənov deyib ki, müstəqillik qazanan Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin hüquqi varisidir:** "Azərbaycanda hüquqi və demokratik dövlətin qurulması, azad iqtisadi münasibətlərin formalaşdırılması başlıca məqsəd kimi qarşıya qoyulur. Təəssüf ki, Azərbaycan müstəqilliyinin ilk illərində Ermənistanın işğalçılıq siyasəti ilə üzləşib. Beynəlxalq siyasi vəziyyət və dövlət qurumlarının o vaxtı rəhbərlərinin naşılığı sayəsində Azərbaycanda tənəzzül baş verib. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə inkişaf və liberal iqtisadiyyata keçid təmin edlib. Prezident İlham Əliyevin siyasətinin məğzində insan hüquq və azadlıqlarının təşviqi, vətəndaş cəmiyyəti institutlarının inkişafı durur, bu istiqamətdə ardıcıl siyasət həyata keçirilir".

**Azərbaycanda partiya, QHT və KİV-in statistikası barədə məlumat verən Ə. Həsənov qeyd edib ki, ölkədə siyasi partiyaların sərbəst fəaliyyət göstərməsi üçün münbit şərait yaradılıb:** "Qanunda partiyaların dövlət qeydiyyatına alınması üçün çox sadə tələblər müəyyənləşdirilib. Hazırda 55 partiya dövlət qeydiyyatından keçib. 2012-ci ilin mayında "Siyasi partiyalar haqqında" Qanuna dəyişikliklər qüvvəyə minib. Hər il dövlət büdcəsindən siyasi partiyaların maliyyələşdirilməsi üçün 2,5 milyon manat vəsait ayrılır.

Bu vəsaitin 40 faizi parlamentə seçilmiş partiyalar arasında proporsional, 50 faizi deputatların sayına uyğun olaraq proporsional olaraq bölünür. Vəsaitin 10 faizi isə son parlament seçkilərində ən azı 3 faiz səs toplamış partiyalar arasında bölünür. Hazırda Milli Məclisdə 7 müxalifət partiyası təmsil olunur".

**O, nəzərə çatdırıb ki, qanunvericilik QHT-lərin də azad və sərbəst fəaliyyət göstərməsini təmin edir:** "Dövlət hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası, Gənclər Fondu vasitəsilə QHT-lərin layihələrini maliyyələşdirir. Digər dövlət qurumlarının xətti ilə də QHT-lərin layihələri maliyyələşdirilir".

**Ə. Həsənov bildirib ki, dövlət və ictimai təşkilatlar arasında əməkdaşlıq mexanizminin təkmilləşdirilməsi diqqət mərkəzində saxlanacaq:** "Mühüm dövlət proqramlarının hazırlanmasına QHT-lərin cəlb edilməsi təmin olunacaq. 2014-cü ildə qüvvəyə minmiş "İctimai iştirakçılıq haqqında" Qanun bu məqsədə xidmət edir. Qanuna əsasən, mərkəzi icra hakimiyyəti orqanları yanında ictimai şuralar yaradılıb".

**O, elektron hökumətlə bağlı görülən işlərdən də bəhs edib:** "Bu sahədə əsas məqsədlərdən biri də QHT-lərə elektron xidmətlərin göstərilməsidir".

---



# Prezident Bakıda yeni yol qovşağının açılışını etdi

**Mayın 7-də Bakı Olimpiya Stadionundan Heydər Əliyev prospektinə keçid və müxtəlif səviyyəli yol qovşağının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına layihənin texniki göstəriciləri barədə məlumat verib.

Avtonəqliyyat vasitələrinin rahat və maneəsiz hərəkətini təmin etmək, paytaxt yollarında sıxlığın azaldılması istiqamətinə dövlətimizin başçısının tövsiyə və tapşırıqlarına əsasən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən tunelin inşasında məqsəd günün pik saatlarında metronun "Koroğlu" stansiyasının qarşısında yaranan tıxacı aradan qaldırmaqdır.

Bu layihənin icrası burada yarana biləcək tıxacların qarşısının alınmasında mühüm rol oynayır. Belə ki, Ziya Bünyadov prospekti istiqamətindən gələn avtonəqliyyat vasitələri Böyük Şor yol qovşağına daxil olmadan, həmçinin metronun "Koroğlu" stansiyasının qarşısından keçmədən yeni avtomobil tuneli ilə Ziya Bünyadov prospektindən Olimpiya kəndi istiqamətinə və oradan da Bakı Olimpiya Stadionunun arxa hissəsində salınan yoldan və tuneldən istifadə etməklə hava limanı istiqamətinə hərəkət edəcək.

Dövlət başçısına məlumat verilib ki, yollarda tıxacların azaldılması məqsədilə layihə çərçivəsində Heydər Əliyev prospektində - Sabunçu yol qovşağından Böyük Şor yol qovşağınadək olan hissədə təmir-tikinti işləri aparılıb. Əsaslı şəkildə yenidən qurulan yolun bu hissəsinin uzunluğu 2,1 kilometr, eni isə ərazilərdən asılı olaraq 26-36 metr təşkil edir. Bu hissədə intensiv hərəkət nəticəsində asfalt-beton örtüyünün üst qatında aşınmalar yaranıb.

Bu səbəbdən də asfalt-beton örtüyünün aşınma qatının yenilənməsinə ehtiyac yaranıb.

---

# "Növbəti parlament seçkiləri 2020-ci ildə keçiriləcək" - Əli Əhmədov

**Hakim Yeni Azərbaycan Partiyası (YAP) ölkədə növbədənkənar parlament seçkilərinin keçiriləcəyi haqda iddialara münasibət bildirib.**

"Report"un məlumatına görə, baş nazirin müavini, YAP-ın sədr müavini-icra katibi Əli Əhmədov jurnalistlərə açıqlamasında deyib ki, növbəti parlament seçkiləri 2020-ci ildə keçiriləcək. "Növbədənkənar parlament seçkiləri haqqında heç nə bilmirəm. Növbəti parlament seçkiləri 2020-ci ildə keçiriləcək",-deyə Ə.Əhmədov əlavə edib.

---

# "İctimaiyyətlə daha sıx işləyəcəyik" - nazir Muxtar Babayev

**"Ekologiya və Təbii Sərvətlər Nazirliyindəki yenilik ilk növbədə bundan sonra daha açıq şəkildə çalışması olacaq".**

"Report" xəbər verir ki, bunu yeni təyin edilmiş ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bildirib.

"Bundan sonra ictimaiyyətlə daha sıx işləyəcəyik. Müzakirə olunmalı bir çox məsələlər var. Bu sahə ilə bağlı ümidləri doğrultmağa çalışacağıq", - deyə o qeyd edib.

Nazirlikdə yeni struktur islahatları aparılmasının gözlənilib-gözlənilməməsi ilə bağlı isə nazir qeyd edib ki, hələ bu barədə danışmaq tezdir: "Hələ vəziyyətlə tanış oluruq".

---



# Bir körpə atasız qala bilər - 24 yaşlı Muradın köməyə ehtiyacı var...

**Trombosit Purpura xəstəliyindən əziyyət çəkən Murad Nuriyevin köməyə ehtiyacı var.**

**Musavat.com xəbər verir ki, 24 yaşlı gəncin sağalması üçün 15 min manat pul lazımdır.**

**Evli, bir uşaq atası olan Muradın ailəsinin imkanı yoxdur və o, müalicə olunmasa, həyatını itirə bilər. Yaxın günlərdə Murad üçün xeyriyyə konserti də keçiriləcək.**

**Qeyd edək ki, M.Nuriyev üçün "Bank of Baku"da hesab nömrəsi açılıb.**

**Hesab sahibi: Nuriyev Murad Mütəllim oğlu**
**Hesab nömrəsi: 38010000138024I4A63**
**Müştəri kodu: 845264**

---

# "Bakcell"in yeni CİN tarifləri ilə daha ÇOX danış!

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi "Bakcell" şirkəti böyük məmnuniyyətlə abunəçilərinə sərfəli qiymətə daha ÇOX danişmaq imkanı verən tam yeni CİN1 və CİN5 tariflərini təqdim edib.**

**Yeni istifadəyə verilmiş CİN1 təklifi sayəsində müştərilər həftədə sadəcə 1 AZN ödəməklə 100 dəqiqə (həftə ərzində istifadə üçün 50 şəbəkədaxili dəqiqə və həftə sonu ərzində istifadə üçün 50 şəbəkədaxili dəqiqə) və 50 SMS əldə edəcəklər. Bu təklifdən həm yeni, həm də cari "Bakcell" abunəçiləri yararlana bilərlər. Həmçinin CİN1 tarifi ilə yeni nömrə alan bütün abunəçilərin hesabına əlavə olaraq 2 AZN və 120 Mb İnternet bonus əlavə ediləcək.**

**CİN5 tarifi ilə isə abunəçilər ayda sadəcə 5 AZN ödəyərək 600 dəqiqə (həftə ərzində istifadə üçün 300 şəbəkədaxili dəqiqə və həftə sonu ərzində istifadə üçün 300 şəbəkədaxili dəqiqə) və 300 SMS əldə edib bol ünsiyyət sevinci yaşayacaqlar.**

**"Biz istəyirik ki, dəyərli abunəçilərimiz dəqiqələrə xərclənən pulu fikirləşmədən öz yaxınları ilə istədikləri qədər sərbəst danışa bilsinlər. CİN1 və CİN5 tarifləri abunəçilərə çeviklik və ünsiyyət rahatlığı təmin etmək üçün yaradılıb və bu təkliflərdən yararlanan müştərilər daha çox ünsiyyət imkanı əldə edəcəklər", deyə "Bakcell" şirkətinin baş marketinq direktoru Todor Dimitrovski bildirib.**




**Yeni CİN tariflərinə qoşulmaq asandır. CİN1 tarifinə qoşulmaq üçün *301#YES kodunu, CİN 5 tarifinə qoşulmaq üçün isə *305#YES kodunu yığın.**

**"Müasir mobil rabitə xidmətləri istifadəçilərinin tələbləri gündən-günə dəyişməkdədir. Biz isə onların tələb və gözləntilərini qarşılamaq üçün öz xidmətlərimizi daha rahat etməyə çalışırıq. İnnovasiya sahəsində özünü doğrultmuş lider olan "Bakcell" öz müştərilərinə yenilənmiş, rahat və maraqlı təkliflər verməyə davam edəcək", deyə Todor Dimitrovski əlavə edib.**

**Yeni CİN1 və CİN5 tarifləri və "Bakcell" şirkətinin digər sərfəli təklifləri barədə daha ətraflı məlumatı www.bakcell.com səhifəsində əldə etmək olar.**

---



# Şuşasız 26 il

## Dağlıq Qarabağın tamamilə işğalı ilə yekunlaşan işğal

**Bu gün Azərbaycanın qədim ərazisi olan Şuşanın Ermənistan tərəfindən işğal olunmasından 26 il keçir. Azərbaycanın bu qədim, zəngin tarixə və mədəniyyətə malik şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən 1992-ci il mayın 8-də ələ keçirilməsi ilə Dağlıq Qarabağın işğalı başa çatdırılıb.**

Bununla ermənilər bölgənin Azərbaycandan faktiki qoparılmasına nail olublar. Şuşanın işğalı nəticəsində 480 günahsız vətəndaş şəhid olub, 600 nəfər yaralanıb, 68 nəfər əsir götürülüb, 22 min nəfər öz yurdundan didərgin düşüb. Əsir götürülmüş 68 soydaşımızın taleyi barədə bu günə qədər məlumat yoxdur. İşğal nəticəsində Şuşadakı bir sıra tarixi-mədəniyyət abidələri düşmən tərəfindən talan edilib. Bu siyahıya Xan mağarası, Qaxal mağarası, Şuşa qalası da daxil olmaqla, bütövlükdə 279 dini, tarixi və mədəni abidə daxildir.

Ermənilər Azərbaycana məxsus olan bir çox abidələrin məhv edilməsinə və ya erməniləşdirilməsinə nail olublar. Onlar Şuşada 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, 8 mədəniyyət evini, 14 klubu, 20 kitabxananı, 2 kinoteatrı, 3 muzeyi, Şərq musiqi alətləri fabrikini dağıdıblar.

Ümumilikdə, 1992-ci il mayın 8-də Ermənistan Silahlı Qüvvələrinin Şuşanı işğal etməsi nəticəsində Azərbaycanın 289 kvadrat kilometr ərazisi ermənilərin nəzarətinə keçib. Ermənistan və Dağlıq Qarabağdakı separatçı rejim artıq uzun müddətdir Şuşada qanunsuz məskunlaşdırma həyata keçirir. Hər il mayın 8-də Şuşanın işğalı gününü bayram kimi təntənəli qeyd edirlər. Builki ildönümü isə ermənilər üçün gərginliklərin yaşandığı günlərə təsadüf edir. Mayın 8-də Ermənistan parlamentində müxalifət lideri Nikol Paşinyanın baş nazir seçilməsi məsələsi səsverməyə çıxarılacaq. Ermənistanda hakimiyyətdən uzaqlaşdırılmaq üzrə olan Qarabağ klanı özünü qorumaq üçün ən müxtəlif variantlara əl atır. Bir sıra siyasi ekspertlər hesab edir ki, mayın 8-də Dağlıq Qarabağdakı hərbi xunta generallarının cəbhə xəttində təxribatlar törətməsi-Azərbaycan ordusuna hücum təşkil etmələri və Ermənistanda əhali arasında ənənəvi müharibə xofunu yaratmağa cəhd elemələri istisna deyil.

**❑ Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 100 (6989) 8 may 2018

**Mayın 7-də Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 95 illik yubileyinə həsr olunan "Heydər Əliyev və Azərbaycanın inkişaf konsepsiyası" mövzusunda elmi-praktik konfrans keçirilib.**

...rılmasına və ölkədə vətəndaş cəmiyyətinin inkişafına misilsiz töhfələr verdi və Azərbaycanın nüfuzlu beynəlxalq qurumlar və dünyanın aparıcı ölkələri ilə əməkdaşlıq imkanlarını genişləndirdi".

Şura sədri vurğulayıb ki, ümummilli liderimiz Heydər Əliyev başladığı böyük dövlət quruculuğunu İlham Əliyev kidan xilas etdi. Xalqımız bu xidməti hər zaman yüksək qiymətləndirir. Azərbaycan dövlətinin xilaskarlıq missiyası məhz Heydər Əliyevin adına yazılıb. Ümummilli lider 1993-cü ildə azərbaycanlıların birləşdirilməsinə nail olmasaydı, dövlətimizin gələcəyindən danışmaq mümkün olmazdı. Hazırda Azərbaycan-



# "Azərbaycanda milli birliyə əsaslanan sabitlik var"

## QHT Şurası "Heydər Əliyev və Azərbaycanın inkişaf konsepsiyası" mövzusunda konfrans keçirdi





**Əli Həsənov:** "Heydər Əliyev həmişə deyirdi ki, iqtisadiyyatın təməli sağlam qoyulmalıdır, hər bir vətəndaş özünü orada görməlidir"
**Azay Quliyev:** "Heydər Əliyev Azərbaycan dövlətinin milli ideyasını konkret ideoloji konseptdə - azərbaycançılıqda ifadə etdi"

Şura sədri, deputat Azay Quliyev bildirib ki, Azərbaycan xalqının görkəmli oğlu, ümummilli liderimiz Heydər Əliyevin həyat və fəaliyyəti hər bir soydaşımız üçün əzmkarlıq, mübarizə və qalibiyyət nümunəsidir. Ulu Öndər 1993-cü ilin iyununda Azərbaycanı böyük bir fəlakətdən xilas etdi, ölkəmizin dünyada layiqli yerini tutması üçün uzun illər çalışdı, müstəqil Azərbaycanın memarı və qurucusu kimi ulu tarixin səhifələrinə öz adını qızıl hərflərlə yazdı. Heydər Əliyev Azərbaycan dövlətinin milli ideyasını konkret ideoloji konseptdə - azərbaycançılıqda ifadə etdi. Azərbaycançılıq ideologiyasına müasir dövlət quruculuğu tələblərinə uyğun yeni məzmun verdi.

**Azay Quliyev deyib ki, Heydər Əliyev mükəmməl dövlət quruculuğu konsepsiyasını işləyib reallaşdıra bilən nadir və xoşbəxt tarixi şəxsiyyətlərdəndir:** "Heydər Əliyev Azərbaycanın yeni konstitusiyasını yaratmaqla sivil, demokratik, çoxpartiyalı dövlət sisteminin formalaşdırılmı bacarıqlı, müdrik və Azərbaycanın müstəqil dövlətçilik ideallarına sadiq bir şəxsiyyətə etibar etməklə ərazi bütövlüyümüz uğrunda mübarizənin, inkişafın, çiçəklənmənin və firavanlığın davamına tam zəmanət verdi.

**Konfransda çıxış edən Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov** ulu öndər Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısındakı mühüm xidmətlərindən danışıb. O bildirib ki, Heydər Əliyev 15 ildir ki, aramızda olmasa da, millətini, xalqını sevən, sağlam ruhlu hər bir azərbaycanlının qəlbində yaşayır. Ulu Öndərin Azərbaycan xalqı qarşısındakı böyük xidmətlərinin ön sırasında onun 1993-cü ildə dövlətimizi xilas etməsi missiyası durur: "Hər il qeyd etdiyimiz 15 iyun - Milli Qurtuluş Günü onun xilaskarlıq missiyasının başlanğıcıdır. Heydər Əliyev Azərbaycan dövlətini məhv olmaqda milli birliyə əsaslanan sabitlik var. Ümummilli liderimiz hələ Naxçıvanda olarkən ziyalılara çağırış edirdi. O qeyd edirdi ki, xalq birləşməlidir. Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı böyük xidmətlərindən biri də xalqımızın birliyinə nail olmasıdır. Onun hakimiyyətə qayıdışından sonra ölkəmizdə bütün sahələrdə inkişaf başladı. Azərbaycanda bazar iqtisadiyyatının inkişafı Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev həmişə deyirdi ki, iqtisadiyyatın təməli sağlam qoyulmalıdır, hər bir vətəndaş özünü orada görməlidir. Bu gün Ulu Öndərimizin siyasi kursunu prezident İlham Əliyev müvəffəqiyyətlə davam etdirir. Hazırda Azərbaycan regionun aparıcı dövlətidir. Azərbaycan böyük inkişaf dövrünü yaşayır. Ölkə rəqabətə davamlılıq, inklüziv inkişafla bağlı indekslərdə aparıcı yer tutur. Bizi bundan sonra daha da yaxşı günlər gözləyir".

Konfransda şuranın sifarişi ilə hazırlanmış ümummilli lider Heydər Əliyevə həsr olunan "Alilikdə sadəlik" adlı qısametrajlı sənədli filmin təqdimatı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov "Heydər Əliyev və Azərbaycanının inkişaf konsepsiyası: proses və nəticə" mövzusunda geniş məruzə ilə çıxış edib.

Toplantıda QHT rəhbərləri Məhərrəm Zülfüqarlı, Tamam Cəfərova və Mirhəsən Seyidov çıxış edərək Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycan dövlətinin qurulmasında və inkişafında göstərdiyi xidmətlərdən danışıblar.

Sonra ümummilli lider Heydər Əliyevin 95 illik yubileyi münasibətilə şuranın sifarişi ilə hazırlanmış sözləri və musiqisi İlahə İsrafilovaya məxsus "Sən dahisən" kompozisiyasının "Avanqard" Kamera orkestrinin, Azərbaycan Milli Konservatoriyasının Xor kollektivinin və müğənnilər-Azərbaycan Respublikasının xalq artisti Heydər Anatollu, İlahə Qismət və Orxan Cəlilovun ifasında təqdimatı olub.

❑ **Musavat.com**

# Heydər Əliyevin 95 illiyi necə qeyd olunur...

## Eks-prezidentın yubileyi ilə bağlı ağacəkmə aksiyaları təşkil edilir

**Mayın 10-da mərhum prezident Heydər Əliyevin 95 illik yubileyidir. Bu gün münasibətilə artıq indidən bir çox dövlət müəssisələrində tədbirlər keçirilir, mərhum prezidentin xatirəsi anılır.**

Bir sıra tədris ocaqlarında artıq Heydər Əliyevin xatirəsinə həsr olunan yaradıcılıq sərgiləri keçirilib.

Eləcə də Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə müxtəlif yerlərdə ötən həftədən etibarən tədbirlər təşkil olunur.

Mayın 7-də Heydər Əliyevin anadan olmasının 95 illik yubileyi münasibətilə Daxili Qoşunların Baş İdarəsində də təntənəli mərasim keçirilib. Tədbirə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri üzrə fəlsəfə doktoru Leyla Hüseynova fəxri qonaq qismində dəvət olunub.

Həmçinin eyni tarixdə Azərbaycan Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının təşkilatçılığı ilə "Heydər Əliyev və Azərbaycanın inkişaf konsepsiyası" mövzusunda elmi-praktik konfrans keçirilib. Konfransda şuranın sədri Azay Quliyev, Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi - şöbə müdiri Əli Həsənov və digər ictimai şəxslər iştirak ediblər. Tədbir iştirakçıları Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycan üçün gördüyü işlərdən danışıblar.

Mayın 7-də Bakıda Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə Heydər Əliyevin anadan olmasının 95 illiyi münasibətilə tədbir keçirilib. Tədbirdə mərhum prezidentin Azərbaycanın Əməkdar Rəssamı Sakit Məmmədov tərəfindən çəkilən portretinin təqdimatı olub.

Bütün bu kimi tədbirlər 10 may tarixinə qədər davam edəcək. Lakin bir məsələ də var ki, illərdir ki, Bakıda mərhum prezidentin doğum günü ərəfəsində Gül bayramı təşkil olunur, Heydər Əliyev Sarayının qarşısında xaricdən gətirilmiş müxtəlif növ güllərdən düzəldilən çələnglər sərgilənirdi. Sadə vətəndaşlar, məmurlar 10 may tarixində park ərazisinə yollanıb, güllərə tamaşa edirdilər. Bu ənənə 2000-ci ildən etibarən hər il mayın 10-da Bakının sabiq meri Hacıbala Abutalıbovun təşəbbüsü əsasında baş tuturdu.

Əvvəlki illərdə Bakıda, Heydər Əliyev Sarayının qarşısında və "Qış bulvarı"nda keçirilən bayram hazırlıqları aprelin sonundan başlayırdı. Hacıbala Abutalıbovun göstərişi ilə müxtəlif dekorasiyalar qurulur, xarici ölkələrdən al-əlvan güllər gətirilirdi.

Səhər saatlarından başlayan bayram tədbirlərinə axşam atəşfəşanlıqla yekun vurulurdu. Ötən il bayram ənənəvi formada qeyd olunmadı. Sadəcə olaraq, iməclik formasında bəzi işlər görüldü. 2016-cı ildə isə Gül bayramı prezident İlham Əliyevin göstərişi ilə keçirilmədi. Belə ki, dövlət başçısı tədbirin keçiriləcəyi vaxtın "Aprel şəhidləri"nin 40 mərasiminə düşdüyünü nəzərə alaraq, bayramın ləğvi haqda göstəriş vermişdi.

Öyrəndik ki, əslində bu il də Heydər Əliyevin adını anaraq, müxtəlif yerlərdə ağacəkmə aksiyaları təşkil olunur. Məsələn, mayın 6-da Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) IDEA İctimai Birliyi ilə birlikdə Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunan ağacəkmə aksiyası keçiriblər. Aksiya agentliyin ilk layihəsi olan Yasamal Yaşayış Kompleksinin birinci məhəlləsinin ərazisində təşkil olunub.

Aksiya zamanı ərazidə Eldar şamı, çinar, zeytun ağacları və bəzək kollarından ibarət yüzdən çox bitki əkilib, onlara qulluq göstərilib, yaşıllıq zonasının sahəsində təmizlik və abadlaşdırma işləri aparılıb.

Öyrəndik ki, ümumilikdə əvvəlki qaydada Gül bayramının keçirilməsi nəzərdə tutulmur.

Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətinin rəhbəri Nailə Məmmədova da modern.az saytının sorğusuna cavab olaraq bildirib ki, Gül bayramına hazırlıqla bağlı şöbəyə hər hansı məlumat daxil olmayıb:

**"Hər halda, tədbir nəzərdə tutulsaydı, hazırlıq işləri başlayardı".**

❑ **Əli RAİS**
**"Yeni Müsavat"**



# İnqilab, yoxsa boyunduruğun təzələnməsi?

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Şuşasızlığın 26-cı ildönümünü yaşayırıq. Bu günlər hamımızı ən çox düşündürən sual yəqin ki, budur: işğal görən, daha nə qədər uzanacaq? Sözsüz ki, türkə qarşı rus-erməni ittifaqı durduqca Şuşamızı, digər şəhər və kəndlərimizi girovluqdan çıxarmaq çətin olacaq.**

Ancaq bu, əsla əl-qolumuzu sallayıb taleyimizlə barışmaq anlamına gəlmir. Biz hər şeydən öncə elə rus-erməni birliyini sarsıtmağın və ya onu zərərsiz hala gətirməyin yolunu tapmalıyıq ki, erməni-rus işğal ortaqlığı da tez bitsin...

Bu günlər diqqət sövq-təbii işğalçı ölkədəki məlum olaylara yönəlib. Məşhur rusiyalı telejurnalist Mixail Leontyev oradakı prosesləri şərh edərkən ibrətamiz fikir söyləyib. Deyib ki: "Erməni xalqı istisnasız olaraq bizim sayəmizdə mövcuddur. Bu xalqın bizi şantaj etmək haqqı yoxdur. Rusiya olmasaydı, nə Ermənistan olardı, nə də bir erməni. Təbiətdə erməni ola bilməzdi".

Haqlıdır. Rusiya olmasaydı, təbiətdə "Qırmızı kitab"a salınası bircə ikiayaqlı hay belə tapmaq mümkün olmazdı. Ruslar olmasaydı, işğal olmazdı, Xocalı soyqırımı baş verməz, Şuşa 26 ildir düşmən əsarətində qalmazdı.

Bu da faktdır ki, torpaqlarımız əsasən Azərbaycanda dövlət çevrilişi dönəmlərində itirilib. Bəs çevrilişlərin sponsoru, ilhamvericisi, rejissoru kim olub? Surət Hüseynovu, Əlikram Hümbətovu legitim hakimiyyətə qarşı kim qızışdırıb, quldur yuvası Xankəndi təslim olmaq üzrə ikən onları hərbi qüvvələri Qarabağdan çəkib Bakıya yönəltməyə kim şirnikləndirib?

Yenə Rusiya, onun məxfi xidməti, hərbi kəşfiyyatı. Rusiya olmasaydı, çevrilişlər olmazdı təbii ki. Tarixi Azərbaycan torpaqlarında "Ermənistan" adlı süni və qondarma dövlətin, qondarma "dqr"in yaradılması da müstəsna olaraq onun - rusun sayəsindədir.

Yeri gəlmişkən, bəzi ekspertlər Ermənistandakı son hadisələri "inqilab" adlandırırlar. Qətiyyən. İnqilab bir xalqın həyatında, idarəçilik sistemində köklü, radikal dəyişikliyə aparan hadisədir. İşğalçı ölkədəki dava isə "yorğan davası"dır, bir vassalın digəri ilə əvəzlənməsi prosesidir.

Aydın məsələdir ki, Kremldən rüsxət alınmasaydı, İrəvandakı Rusiya səfirliyi "dobro" verməsəydi, Nikol Paşinyanın baş nazirlik yolu açılmazdı. Onun Rusiya əleyhinə hər hansı bəyanat səsləndirməməsi, Ermənistanın Moskvanın təsir və nüfuz zonasında qalacağı barədə dönə-dönə zəmanət verməsi də qonşu ölkədə hərəkatın ölkəni boyunduruqdan çıxarmaqdan daha çox, boyunduruğu yeniləməklə bağlı olduğuna şübhə saxlamır...

Məşhur deyim var: "Qul öz qul vəziyyəti ilə barışmırsa, o, artıq qul deyil, inqilabçıdır, barışırsa, demək, elə kölədir ki var". Ermənistandakı hadisələr də Rusiyanın köləsi olmaqdan imtinaya, qurtuluşa gətirməyəcək. Bu, heç düz-əməlli hakimiyyət dəyişikliyi də deyil. Deyildiyi kimi, yalnız vassal dəyişikliyidir. Erməni xalqı, xüsusən də sadəlövh gənclik tezliklə bundan əmin və məyus olacaq.

Ermənilər ona da xatircəm olacaq ki, erməni xalqının xoşbəxtliyi Rusiya ilə "əbədi ittifaq"da, Azərbaycan və Türkiyə ilə düşmənçilikdə deyil. Əksinə, Azərbaycan və Türkiyə ilə dostluq və müttəfiqlikdədir. Şuşanın işğalı da o qədər uzanacaq ki, ermənilər başqasının bədbəxtliyi üzərində xoşbəxtlik qurmağın mümkünsüzlüyünü, nəhayət, anlayacaqlar.

Anlamasalar, yaxud gec anlasalar, proses çox uzansa, anlatmalı olacağıq, Azərbaycan əsgəri anlatmalı olacaq. Əyani şəkildə, aprel qulaqburmasından qat-qat ağrılı formada...

# Novruz Məmmədovun yerinə təyinat nə zaman olacaq?

## Politoloq: "Ölkə prezidenti bu postu uzun müddət boş saxlamayacaq"

**Prezident İlham Əliyevin aprelin 21-də imzaladığı sərəncamla Nazirlər Kabinetinin (NK) yeni tərkibi müəyyənləşdi. Sərəncama əsasən, NK-nın tərkibində xeyli dəyişikliklər oldu. Eyni zamanda illərdir baş nazir postunu tutan Artur Rasi-zadə də Novruz Məmmədovla əvəzləndi. Novruz Məmmədov baş nazir təyin olunmazdan öncə prezidentin xarici siyasət məsələləri üzrə köməkçisi vəzifəsində idi. Artıq 3 həftəyə yaxındır ki, bu vəzifə boş qalıb.**



Yeni hökumətin formalaşmasından sonra boş qalan bəzi yerlərə müxtəlif şəxslərin təyin oluna biləcəyi ilə bağlı mətbuatda proqnozlar verildi. Xüsusilə də Bakı Şəhər İcra Hakimiyyətinin başçısı postu ilə bağlı xeyli namizədin adı çəkildi. Lakin Novruz Məmmədovun yerinə kimin təyin olunacağı hələ ki sirr olaraq qalır. Bu barədə indiyə qədər mətbuatda hər hansı bir müzakirə, proqnoz verilməyib.

Belə bir vəzifənin boş qalmasının dövlət üçün hansı təsirləri var?

**"Yeni Müsavat"a danışan politoloq Mübariz Əhmədoğlu bildirib ki, ölkə başçısı qərar verən zaman bütün nüansları nəzərə alır:** "Bizim xarici siyasətdə ən aktual məsələ Dağlıq Qarabağ mövzusudur. Hazırda Ermənistanda baş verənlər heç kimə sirr deyil. Bu hadisələr Dağlıq Qarabağ tənzimlənməsi ətrafındakı prosesləri bir xeyli yubadıb. Ola bilər ki, Ermənistanda bu münaqişə aparmağa legitimliyi çatan, effektivliyi olan hökumət hələ uzun müddət qurulmasın. Orada, məsələn, sabah Paşinyan baş nazir seçilsə də, bu, onun Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqları aparmağa hazır olmasının göstəricisi deyil. Eləcə də Paşinyan qısa müddətdən sonra hakimiyyətdən uzaqlaşdırıla da bilər. İnqilabi prosesdə hər şey gözləmək mümkündür. Ermənistan bu inqilabla xaos dövrünə qədəm qoydu və orada bəzi proseslər hələ xeyli müddət təkrarlanacaq. Ola bilər ki, hakimiyyətlər də tez-tez dəyişsin. Əgər Ermənistanda prezident üsul-idarəsi qalsaydı və Serj Sərkisyan da prezident olsaydı, o, bu andan istifadə edəcəkdi. Azərbaycana beynəlxalq ictimaiyyətin təzyiqini yönəldə bilərdi. Ona görə də hesab edirəm ki, indiki vəziyyət çox da təhlükəli deyil. Elə başa düşürəm ki, ölkə prezidenti bu postu uzun müddət boş saxlamayacaq. Təkcə bir post deyil. Bir neçə belə post var ki, hələ ki boş qalıb. Bu yerlərə də hesab edirəm ki, yaxın zamanlarda təyinatlar olacaq. Bizim xarici siyasətdə digər aktual istiqamətlər də var. Belə ki, Trampın ətrafında artıq konkret olaraq İrana qarşı müharibədən danışılır. Bunun müəyyən əlamətlərini artıq görürük. İrana qarşı nə baş verirsə, bu ölkə çalışır ki, bunu Azərbaycanın üstünə qoysun. İranın siyasəti o qədər də güclü deyil. Bu siyasəti quranların özləri də heç siyasətlərinə inanmırlar. Ona görə də onlarda şübhə çoxdur. Şübhənin də çoxu Azərbaycanın üstündədir. Novruz müəllimin gördüyü işlərdən biri də İran istiqamətində idi. İranla bağlı siyasətimizin dini və digər bu kimi aspektləri də var. Ölkə prezidenti dəfələrlə sübut edib ki, o, hədsiz dərəcədə dəqiq, önləyici addımları atmağı bacarır. İndi də əgər yubadırsa, deməli, onun özünün məqsədi var. Çünki ölkə prezidenti hadisə yaradan zaman bunu hərtərəfli olaraq fikirləşir. O, təkcə Azərbaycan amilini nəzərə almır. Məkanla bərabər, həm də zaman amilini düşünür. Sabah Dağlıq Qarabağla da bağlı olan danışıqlarda aktivlik yaranarsa, Novruz Məmmədov bu işlərdə aktiv olacaq".

**Politoloq bildirib ki, Novruz Məmmədovun təyinatının bir neçə məqamları var:** "Onlardan biri də Novruz Məmmədovun Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqları aparmağa hazır olmasıdır. Yəni o, baş nazir kimi həm də münaqişə ilə bağlı danışıqları apara bilər. Hər kəs gördü ki, Sərkisyan hansı oyunlara əl atdı. Deməli, sabah Ermənistan tərəfdən təşəbbüs gələn kimi Azərbaycan prezidenti iştirak etməsə də Novruz Məmmədov baş nazir statusunda danışıqlara qatılacaq. Eləcə də deyim ki, Dağlıq Qarabağ danışıqları ilə bağlı prezidentin Rövşən Rzayev təyinatı da çox uğurlu oldu. Çünki bu vaxta qədər Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi mənzil paylamaq işlərinə baxırdı. Ancaq indi konkret olaraq siyasi idarəyə çevrilib. Eləcə də İran, Rusiya, Türkiyə istiqamətində də bəzi aktivləşən məsələlərimiz var. Ancaq buna rəğmən hesab edirəm ki, ölkə prezidenti bütün bunları nəzərə alır. O, hər təyinatı öz vaxtında edəcək".

**Novruz Məmmədov əvvəlki vəzifəsində olduğu zaman Qarabağla bağlı görüşlərdən sonra sosial şəbəkələrdə fikirlərini yazıb, görüş barəsində məlumatlar paylaşırdı. Mübariz Qurbanlı hesab edir ki, bu vəzifəyə təyinat alacaq olan şəxs də sosial şəbəkələrlə işləməyi bacarmalıdır:** "Prezidentin təyinatına fikir verdikdə görürük ki, yeni təyin olunan şəxslərin hamısı cavanlardır. Onlar həm də müasir texnologiyanı, müasir elmi çox gözəl şəkildə bilirlər. Lazım olacaqsa, bu şəxslərin hamısı sosial şəbəkələrdə aktiv olacaqlar. Novruz Məmmədovun yerinə olan təyinata gəlincə isə ağlıma gətirə bilmirəm ki, beynəlxalq əlaqələr şöbəsinə təyin olunacaq adam sosial şəbəkələrdən məlumatsız olsun. Bu, mümkün deyil. Prezidentin özünün dünya görüşü ilə də bu məsələ ayaqlaşmır. Ona görə də hesab edirəm ki, Novruz Məmmədovun yerinə də gənc adam təyin olunacaq. Həmin şəxs həm beynəlxalq siyasəti, həm də Azərbaycanın xarici siyasətini, təbliğat mexanizmini çox gözəl biləcək, sosial şəbəkələrdə də aktiv olacaq".

❑ Əli RAİS,
"Yeni Müsavat"

**Aprelin 21-də təsdiq olunan yeni hökumətdə 4 deputatın yüksək vəzifələrə təyinat almaları bəzi məsələləri gündəm edib. Son 25 ildə hakimiyyətə sədaqətli olan parlament üzvləri var ki, indiyə qədər heç bir yüksək postda təmsil olunmayıblar. Ən yaxşı halda deputat mandatı alıblar.**

# "Belə bir təklif olsaydı..."

## Fəzail Ağamalı vəzifə təklifi almayan deputatlar haqda danışdı



Son təyinatlardan sonra gündəmə gələn daha bir maraqlı fakt da ondan ibarətdir ki, 1993-cü ilə qədər ölkə iqtidarına qarşı müxalif mövqedə dayanan bəzi insanlar hazırda hökumətin yüksək pillələrində vəzifə sahibidirlər. Amma hakimiyyətə daim sədaqət nümayiş etdirən *(məsələn, YAP icra katibinin müavini Siyavuş Novruzov, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı, bitərəf deputat Zahid Oruc)* şəxslər vəzifəyə təyin olunmurlar.

**F.Ağamalı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, oturuşmuş ölkədə hər şey yerində olmalıdır:** "İstər icra strukturları, istər parlament, istərsə də digər sahələr olsun, peşəkarlıq həlledici əhəmiyyət kəsb edir. Bu gün Milli Məclisin bəzi üzvləri ölkə prezidenti tərəfindən icra strukturlarına təyinat aldı. Onlardan əksəriyyəti demək olar gəncdirlər, Milli Məclisdə böyük təcrübə qazanıblar. Muxtar Babayev kimi dəyərli həmkarımız həm də icra strukturunda çalışırdı. Rövşən Rzayev də vaxtilə notarius sistemində işləyib. Onun da idarəçilik sistemində təcrübəsi var. Deputat olmasa da, İnam Kərimov heç nədən "ASAN Xidmət"i qurmaqla böyük bir təcrübə qazandı. Onun da təyinat aldığı vəzifə üçün yetəcək təcrübəsi var. Vüsal Hüseynov Prezident Administrasiyasından Milli Məclisə gəldi. İki il müddətində parlamentdə yüksək mədəniyyəti, məntiqli çıxışları və savadı ilə özünü təsdiq edə bildi. Onun da təyinatı çox doğru bir qərardır. Sizin də dediyiniz kimi, Siyavuş Novruzov, Fəzail Ağamalı kimi deputatlar əgər icra strukturlarına təyinat alsaydılar, bunun öhdəsindən əlbəttə gələcəkdirlər. Buna qətiyyən şübhə etmirəm. Lakin unutmaq olmaz ki, parlamentdə də peşəkar siyasətçilərə ciddi ehtiyac var. Özümü tamamilə kənara qoyub Siyavuş müəllim haqqında danışmaq istəyirəm ki, komitə sədridir və sanballı deputat, peşəkar siyasətçi kimi formalaşıb. Mənə elə gəlir ki, onun Milli Məclisə töhfələri daha çox özünü göstərməkdədir. Ölkə başçısı tərəfindən daim peşəkarlıq nəzərə alınır. Son təyinatlarda deputatların da yer alması tamamilə məntiqlidir. Bu, çox müsbət bir təcrübədir. Hamı tərəfindən də yüksək dəyərləndirildi".

**F.Ağamalı deputat olduğu illərdə heç bir vəzifə təklifi almadığını da söylədi:** "Mən 1994-cü ildə Surət Hüseynovla üz-üzə gəldim və ciddi vəziyyət yarandı. O zaman şəxsi özüm Ulu Öndərdən istefa ərizəmi qəbul etməsini xahiş etdim. Çünki vəziyyət olduqca gərgin idi. İstefaya getməməyim ölkədə vəziyyəti ağırlaşdıra bilərdi. Hətta Surət Hüseynovun tərəfdarları belə bir tələblə çıxış edirdilər ki, Fəzail Ağamalı istefa verməsə, prezident Heydər Əliyevin istefa verməsi tələbi ilə Prezident Aparatına hücum edəcəyik, orada oturaq aksiya keçirəcəyik. Bu niyyətlər var idi və bunun da arxasında birmənalı Surət Hüseynov dayanırdı. Vəziyyətin çətinləşməməsi, kritik həddə çatmaması üçün rəhmətlik Ulu Öndərdən onun köməkçisi Eldar Namazov vasitəsilə xahiş etdim ki, istefam qəbul edilsin. Həmin gün Prezident Aparatında kənd təsərrüfatı ilə bağlı müşavirə keçirilirdi, nazir əvəzi kimi həmin müşavirəyə dəvət olunmuşdum. Təkidli xahişimdən sonra ümummilli liderimiz istefamı qəbul etdi. Müşavirənin gedişində istefaya göndərilməyim barədə prezidentin sərəncamı oldu. Ondan sonra yenə də mövqeyimdə qaldım və Heydər Əliyev siyasətini birmənalı dəstəkləməkdə davam etdim. Surət Hüseynov hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra ulu öndərimiz tərəfindən mənə təklif olundu ki, əvvəlki vəzifəmə qayıdım. Bu mənə çox böyük etimad idi. Bunun üçün təşəkkürümü bildirdim və arzumu dedim ki, əgər Ulu Öndər məsləhət bilərdisə, dövlətimizə parlament müstəvisində xidmətimi göstərərdim. Ümummilli liderimiz bu istəyimə hörmətlə yanaşdı və parlament seçkilərinə getdim. İndiyə qədər də Milli Məclisdəyəm. Millət vəkili kimi dövlətimə, xalqıma xidmət etməkdən qürur duyuram. Bu, xidmətlərimin ən yüksək zirvəsidir. Belə xidməti Tanrı taleyimə yazıbsa, Tanrıma da minnətdaram. Deputat olduğum dönəmlərdə bu və ya digər vəzifələrə təyinat almamışam. Amma cənab prezident məsləhət bilərdisə, xidmətlərim xüsusi olaraq dövlətimiz üçün lazım olardısa, heç şübhəsiz ki, istənilən təklifi qəbul edərdim. Çünki etiraf etmək lazımdır ki, cənab prezident İlham Əliyev daha qlobal düşünür, Azərbaycan dövlətçiliyinin bu gününə və sabahına töhfələr vermək üçün hər kəsdən daha böyük məsuliyyəti çiyinlərinə götürərək, bunun üçün komandasını formalaşdırır. Ona görə də Milli Məclisdə deyil, icra strukturlarında belə bir təklif olunsaydı, oradan dövlətimizə, xalqımıza daha ciddi xidmət göstərə bilsəydim, bu potensialım, imkanım olsaydı, təbii ki, təklifləri qəbul edərdim".

**❑ Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# AzTV sədri barədə araşdırma tələbi- hüquqşünas rəyi

## Əkrəm Həsənov: "Müvafiq qaydada cinayət işi başlanıb araşdırma aparılmalıdır"

**"AzTV sədri Arif Alışanovu məhkəmədə adam öldürməkdə ittiham edirlər, heç kim reaksiya vermir". Bunu Milli Məclisin iclasında deputat Fazil Mustafa deyib. Deputat bildirib ki, məhkəmələrin rolunu artırmaq üçün ciddi addımlar atılmalı, məhkəmələrdə səsləndirilən ittihamlara, qəbul olunan qərarlara ciddi yanaşma olmalıdır: "Doğru, ya səhvdir, bilmirəm, amma məhkəmədə səslənən ittiham var ortada. Söhbət 5-10 manat oğurlamaqdan getmir, adam öldürməkdən gedir, özü də məhkəmədə səsləndirilən ittihamdan".**



Arif Alışanov

Aylardır ki, Bakı Ağır Cinayətlər Məhkəməsində AzTV sədri Arif Alışanov və ailə üzvlərinin adı keçən proses davam edir. İş üzrə təqsirləndirilən şəxs Şücayət Əkbərov ittihamları qəbul etmir. Deyir ki, Arif Alışanov bir neçə il əvvəl Şamaxıya bir qızla gəlib, həmin qızı dağdan atıb. O, bu hadisəni bildiyi üçün də Arif Alışanovun həbs etdirib.

İttihama görə, Arif Alışanov 2007-ci ilin ortalarında Şamaxı rayonunda torpaq almaq qərarına gəlib və bu məqsədlə rayonunun Nağaraxana kənd sakini Şücayət Əkbərovla tanış olub. AzTV sədri nəql edib ki, bu tanışlıqdan sonra Şücayətlə aralarında yaxşı münasibət yaranıb. 2012-ci ildə Alışanov qardaşı Habili, yeznəsi Vidadi Cəfərovu, qayınları - Etibar, Natiq Bağırovları da kənd təsərrüfatı ilə məşğul olmağa, yeni ortaq biznesə cəlb edib, torpaqların yerli sakinlərdən satın alınmasında Şücayət Əkbərovdan kömək istəyib. Baş tutmayan bu biznesə 2012-ci ildən 2016-cı ilədək hissə-hissə qardaşı Habil 200 min manat, yeznəsi Vidadi 200 min manat, qaynı Etibar 1 milyon 800 min manat, digər qaynı Natiq 3 milyon 500 min manat, özü isə 500 min manat - cəmi 6 milyon 200 min manat qoyaraq kənd təsərrüfatı və turizmlə məşğul olmaq qərarına gəliblər. Bu sövdələşmədən sonra Alışanov Şücayət Əkbərovdan 50 hektar torpaq sahəsi üçün 1 milyon 5 min manat alıb. 2014-cü ilin fevralında Şücayət Əkbərov 3 hektar 48 sot torpaq üçün 174 min manatı mənimsəyib.

AzTV sədri ifadəsində bildirib ki, Şücayət Əkbərov 2016-cı ilin dekabrından Mədrəsə qəsəbəsində SSRİ vaxtında tikilmiş hansısa hovuzu göstərmək istədiyini və təsvir etdiyinə görə suvarma işlərində gələcəkdə problem olmaması üçün həmin su hovuzuna baxıb almalı olduqlarını ona deyib. **"Həmin vaxt Şücayətin bu təklifini normal qarşıladım. Hazırda isə anlayıram ki, Şücayət çölün düzündə olan sahəyə məni aparıb qətlə yetirmək istəyib. Lakin biz həmin yerə gedib baxa bilmədik. Bu hadisədən bir neçə gün sonra biz Şamaxıya gedəndə polis əməkdaşlarının Şücayəti tutduqlarını bildik. Bundan sonra Bakıya qayıtdıq. Sonradan Şücayət Əkbərovun məni, bacım oğlu Dəyanət Cəfərovu bir neçə dəfə qətlə yetirmək istədiyi məlum oldu".**

Təqsirləndirilən şəxslər Cinayət Məcəlləsinin 29,120-ci (qəsdən adam öldürməyə cəhd), 178-ci (dələduzluq) və digər maddələrinə əsasən ittiham olunurlar.

İstintaq materiallarında AzTV sədrinin həyatına bir neçə dəfə sui-qəsd cəhdi olması iddia edilir. Sədrin avtomobilini Ağsu aşırımında vurub dərəyə aşırmaq, bu da baş tutmadıqda Alışanovu güllələmək planları barədə istintaq materiallarında ətraflı bəhs edilir.

Təqsirləndirilən şəxslər isə hər prosesdə bəyan edirlər ki, ittihamları qəbul etmirlər. Deyirlər ki, Arif Alışanov onları həbs etdirməklə özünün qanunsuz əməllərini, korrupsiya cinayətlərini gizlətməyə, pərdələməyə çalışır.

Bəs qanun nə deyir? Alışanov tutduğu vəzifə ilə yanaşı bizneslə məşğul ola bilərmi? O, istintaq və məhkəmə dövründə vəzifəsindən müvəqqəti də olsa, uzaqlaşdırılmalıdırmı?

**Tanınmış hüquqşünas Əkrəm Həsənov təqsirləndirilən şəxslərin dilindən səslənən ittihamlara münasibət bildirərkən deyib ki, bu məsələləri istintaq araşdırmalıdır. Əgər dediklərində həqiqət payı varsa, müvafiq qaydada cinayət işi başlanıb araşdırma aparılmalıdır. Əkrəm Həsənov Arif Alışanov pullarının mənbəyi haqda konkret söz deyə bilməyəcəyini söylədi:** "Arif Alışanov 1200-1500 manat maaş alıb əli milyonlarla oynayır. Bunu istintaqda da deməkdən çəkinmir. Bilir ki, ona pulun mənbəyi ilə bağlı sual verən olmayacaq. Yəni Arif Alışanov 1500 manat maaş alırsa və günlərin birində məlum olursa ki, onun 6 milyonu var, biznesə yatırıb, hesabat verməlidir ki, 1500 manatla 5-6 milyon manatı necə toplaya bilib? Detallı, ətraflı deməlidir bunu və pulun mənbəyi ilə bağlı bütün suallara cavab verməlidir".

**Əkrəm Həsənov dövlət məmurlarının bir çoxunun harınladığını deyir:** "Məmurlar haqda mərhum prezident qudurğan, harınlamış ifadəsini işlədirdi. Bu, təsadüfi deyildi. Əlində məmurların hansı işlərlə məşğul olmaları haqda konkret məlumatlar vardı. Bu gün elə məmurlar ver ki, bəlkə də arvadı da evdə ona deyir ki, kül başına, sənə o biri məmurlar gülürlər, yəni sənin pulun azdır, cəmi 5-6 milyonun var. Yəni pulun çox olmalı idi. Bir-birinin bəhsinə belə işlərə qol qoyurlar, sonda da Arif Alışanovun düşdüyü duruma yuvarlanırlar".

**❑ E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 100 (6989) 8 may 2018



# Kremlin danışan dilinin acı sözləri

Xalid KAZIMLI

**Hər ölkədə elə siyasətçilər, politoloqlar və jurnalistlər var ki, onlar çıxıb bir söz, fikir dilə gətirəndə, aydın şəkildə bilirsən: "Bu, onun öz fikri deyil, dövləti idarə edən dairələrin fikridir".**

Elə adamlar bizdə də var, Türkiyədə də, ABŞ-da da, Rusiyada da.

Bu xüsusda müəyyən incəliklər var, biri də odur ki, belə adamlar xüsusi təlimatlanmış olmaya, yəni hansısa fikri saraydan direktiv almadan da səsləndirə bilərlər.

Bu, onların ölkənin, regionun, dünyanın gündəmini əla izləmələrinin və öz dövlətinin siyasi kursunun detallarını yaxşı bilmələrinin, bir də müəyyən informasiyalı dairələrlə əlaqələrinin nəticəsi də ola bilər.

Rusiyalı telejurnalist Mixail Leontyev o cür adamlardandır.

Biz onu azı 20 il öncədən tanıyırıq. O zaman o, qısa çəkən müəllif veriliş aparırdı, gündəmdə olan siyasi hadisəyə dair öz şərhini verirdi.

Leontyevin tele-köşəsi onunla seçilirdi ki, o, ölkəsinin daxilindəki və xaricindəki bütün hadisələrə, proseslərə sırf Kremlin baxış bucağından yanaşırdı. Adam özünü rus millətçisi kimi tanıtmışdı və səmimi idi. Aydınca bilinirdi ki, o, öz xalqını dünyanın bütün xalqlarından üstün sayır və onun mənafeyini heç kəsə güzəştə getməz.

Mixail Leontyev zaman-zaman Azərbaycana qarşı da sözlü həmlələr edirdi və vaxtaşırı açıq-aşkar ermənipərəst mövqe sərgiləyirdi.

Bu, o zamanlar idi ki, Moskva Ermənistana 1 milyard dollarlıq silah (bir az köhnə olsa da) vermişdi, Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə danışıqlarda rəsmi İrəvanın sözünə qüvvət verirdi, Azərbaycanı "sülhə gətirmək" üçün təzyiqlərə əl atırdı.

Leontyev də öz verilişində bizi, Azərbaycan tərəfini, rus ibarəsi ilə desək, "ne prav" çıxarırdı.

İndi bu adamın birdən-birə, uzun illərdən sonra durub Ermənistana qarşı fikirlər söyləməsi, Ermənistanın Rusiyasız heç nə olduğunu bildirməsi, hətta təhqiramiz ifadə işlətməsi ondan xəbər verir ki, körpünün altından çox sular axıb və Ermənistan-Rusiya-Azərbaycan-Qərb münasibətlərində status-kvo bir qədər dəyişib.

Məşhur jurnalistin son açıqlamaları heç də rəsmi Bakının onunla iş aparıb öz tərəfinə çəkməsinin nəticəsi deyil. Leontyev bu sözləri ilə hansısa muzd qarşılığında söyləmir və "Azərbaycanın dəyirmanına su tökmür". O, sadəcə, yenə də informasiyalı biridir və iti fəhmi ilə küləyin hansı istiqamətdən əsdiyini bilir.

Bu ondan xəbər verir ki, hazırda Kremldə Ermənistan haqqında aşağı-yuxarı bu cür düşünürlər.

Kreml başbilənləri düşündüklərini heç vaxt açıq-açığına dilə gətirməyəcəklər, diplomatik ifadələrdən istifadə edəcəklər, media üçün dostluq fotoları sərgiləyəcəklər, ancaq bu, onların bağlı qapılar arxasındakı ritorikasını və düşüncələrini dəyişməyəcək.

Məsələ bundan ibarətdir ki, son iki ildə Ermənistanda "müvəffəqiyyətdən başgicəllənməsi" prosesi gedir: ermənilər bura qədər Rusiyanın hesabına əldə etdikləri nailiyyətlərə qane olmurlar. Rusiya isə onlara bundan artığını vermək niyyətində deyil. Aşıb-daşan erməni ambisiyası Rusiyanın "qonşular" siyasətinə zidd düşür. Ona görə də indi onlar özlərinə başqa ağa, daha dəqiqi, himayədar axtarırlar.

Leontyevin, eləcə də çoxdan "Kremlin danışan dili" olan Jirinovskinin Rusiyanın elədiklərini Ermənistanın başına qaxmaları, ermənilərin ruslarsız pis günə qalacaqları barədə anons etmələri o məqsədə xidmət edir ki, onları yanlış yoldan çəkindirsinlər, Qərbə reverans etmələrini dayandırsınlar.

Yoxsa 20 ilin ermənifil Leontyevi birdən-birə ermənifob olmazdı.

O, elə bir adamdır ki, dövlətinin yanında olanları öyəcək, qarşısında olanları isə söyəcək. Leontyev Qafqaza baxır və Ermənistanın Moskvaya tərəf baxmadığını, üzünü Qərbə tutduğunu görür, ona görə də hiddətlənir.

Bu durum bizə, dövlətimizin, ölkəmizin mənafelərinə uyur. Təki düşmənimizin müttəfiqi ondan üz döndərsin və biz, nəhayət, istər siyasət və diplomatiya cəbhəsində, istərsə də Qarabağ səngərlərində üz-üzə, təkbətək qalaq.

O zaman bilinər ki, əsl "Qələbə günü" hansıdır - 8-i, 9-u, yoxsa başqa bir gün.

# Yeni kadrlar media ilə necə işləyəcəklər - iki rəy

## **Xalid Kazımlı:** "Onların arasında da mətbuata nisbətən açıq və xeyli qapalı olanlar olacaq"

## **Elçin Zahiroğlu:** "Onların stereotipləri tam qıracağına ümidim o qədər də çox deyil"



Muxtar Babayev



İnam Kərimov



Fuad Muradov

**"Ekologiya və Təbii Sərvətlər Nazirliyindəki yenilik ilk növbədə bundan sonra daha açıq şəkildə çalışması olacaq". "Report" xəbər verir ki, bunu yeni təyin edilmiş ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bildirib. "Bundan sonra ictimaiyyətlə daha sıx işləyəcəyik. Müzakirə olunmalı bir çox məsələlər var. Bu sahə ilə bağlı ümidləri doğrultmağa çalışacağıq", - deyə o qeyd edib.**

Nazirlikdə yeni struktur islahatları aparılmasının gözlənilib-gözlənilməməsi ilə bağlı isə nazir qeyd edib ki, hələ bu barədə danışmaq tezdir: "Hələ vəziyyətlə tanış oluruq".

Bu isə bizə yeni təyin edilən nazirlərin, komitə sədrlərinin media ilə necə işləyəcəyi mövzusunda suallar yaradır. Bəli, yeni nazirlər, yeni təyinatlar bütün hallarda cəmiyyətdə suallar yaradır. Necə çalışacaqlar, sələflərindən fərqli hansı addımları atacaqlar?

**Musavat.com saytının veb redaktoru Xalid Kazımlı** bildirdi ki, yeni, gənc nazirlərin media ilə necə işləyəcəyi, ümumiyyətlə, sahələri üzrə necə fəaliyyət göstərəcəkləri barədə indidən bir söz demək çətindir. Onun fikrincə, sadəcə, bu şəxslərin gənc olması, sovet partnomenklaturasının iyerarxik, bürokratik sistemində yetişməmələri bir qədər optimizmə əsas verir: "Bununla belə, söz yox ki, onların içində də mətbuata nisbətən açıq və xeyli qapalı olanlar olacaq. Əgər onlar işlərini, mətbuatla əlaqələrini günün, dövrün tələbləri səviyyəsində quracaqlarsa, mediadan da dəstək görəcəklər, yox, mediaya "dirsək" göstərəcəklərsə, bu, avtomatik olaraq ictimaiyyətə, qanunlara "dirsək" göstərmək demək olacaq, onlar da uyğun reaksiya ilə üzləşəcəklər. Yenə ümid edək ki, yeni nazirlər bəzi sələflərinin aqibətindən dürüst nəticə çıxaracaq, tənqidə dözümlü olacaq və jurnalistlərlə məhkəmə və ya media çəkişməsinə girişməyəcəklər".

**Bakupost.az saytının redaktoru Elçin Zahiroğlu isə dedi ki, yeni təyin olunan nazir və komitə sədrlərinin hər birinin cəmiyyətdə müsbət imici var, amma mətbuata açıq adam kimi tanınmırlar. Müsahibimizin bildirdiyinə görə, yüksək vəzifəyə təyinat alan 4 deputatdan Fuad Muradov və Rövşən Rzayevin mətbuatda kifayət qədər dostları var. Lakin bəzi vaxtlarda onlardan belə hansısa məsələ barəsində dərhal açıqlama almaqda problem yaşanıb:** "Düşünürəm ki, yeni təyin olunan nazir və komitə sədrləri mətbuatla birbaşa təmasda olmasalar da, öz işləri ilə bağlı ictimaiyyətə mətbuat vasitəsilə mütəmadi olaraq məlumatlar verəcəklər. Yəni yeni təyin olunan şəxslər mətbuatı maraqlandıran suallara cavab yox, özlərinin gördükləri işlərlə bağlı məlumat verməyə daha çox üstünlük verəcəklər. İstər İnam Kərimov olsun, istərsə də bizim yaxından tanıdığımız deputatların bundan əvvəlki fəaliyyətləri bunu göstərir. Məlumdur ki, yeni təyin olunan nazir və komitə sədrləri kadr dəyişiklikləri edirlər, qurumlarda xeyli qüsurları üzə çıxarıblar. Amma biz bunlarla bağlı aidiyyəti qurumların rəsmi xəbərlərini görmürük. Hələ də yeni rəhbərlər həmin qurumlarda hansı problemlərlə üzləşdikləri, hansı neqativ halları üzə çıxardıqları ilə bağlı ictimaiyyətə rəsmi məlumat vermirlər. İndi də bu məsələlərlə bağlı məlumatları mətbuat "etibarlı mənbə"yə istinadən yayır".

**E.Zahiroğlu hesab edir ki, yeni nazir və komitə sədrlərimizin mətbuata açıqlığı məsələsi həm də onların özlərinə seçəcəkləri mətbuat katibindən asılıdır. Onun fikrincə, bu, əslində çox vacib məqamdır:** "Hələ ki Kənd Təsərrüfatı Nazirliyindən başqa heç birində yeni mətbuat katibi təyinatı olmayıb. Bu təyinatlar olsa, ondan sonra onların media ilə hansı formada işləyəcəyi barədə konkret fikir formalaşacaq. Yeni baş nazirimiz Novruz Məmmədovu bu baxımdan mətbuata daha açıq adam hesab etmək olar. O, daim mətbuatla işləyən şəxsdir. Mütəmadi olaraq müsahibələr verir, baş verən proseslərə özü sosial şəbəkələr vasitəsilə reaksiya verir. Amma baş nazir kimi ilk çıxışında bundan sonra danışmayacağı anonsunu verdi. Qısası, yeni təyin olunan şəxslərin stereotipləri tam qıracağına ümidim o qədər də çox deyil. İnanmıram ki, jurnalistlər istədikləri vaxt lazım olan suallara anındaca onların özlərindən münasibət öyrənə bilsinlər".

❑ Sevìnc TELMANQIZI,
"Yenì Müsavat"

# Baytarlıq Xidməti rəisinin şok maxinasiyası

## Ətlik mal-qara necə "damazlıq" olur?

**Rəhbərləri vəzifədən uzaqlaşdırılan dövlət qurumlarında yoxlamalar başlanıb. Əldə etdiyimiz məlumata görə, Kənd Təsərrüfatı Nazirliyinin Dövlət Baytarlıq Xidmətində aparılan yoxlamalar çox ilginc bir faktın aşkarlanması ilə nəticələnib. Məlum olub ki, son illərdə kəsim üçün Azərbaycana xaricdən gətirilən mal-qaranın xeyli hissəsi "damazlıq" adı ilə rəsmiləşdirilib. Məlumatı redaksiyamıza verən mənbənin dediyinə görə, mal-qara idxal olunarkən onu Dövlət Baytarlıq Nəzarəti Xidmətinin əməkdaşı yoxlayır: "Onlar mal-qaranın həqiqətən damazlıq olub-olmadığına dair sənəd verirlər. Son illərdə kəsim üçün gətirilən minlərlə baş mal-qara xidmət əməkdaşlarına verilən rüşvət müqabilində damazlıq adı ilə rəsmiləşdirilib".**



Azər Süleymanov

Mənbənin dediyinə görə, bu saxtalaşdırma prosesi birbaşa xidmətin rəisi Azər Süleymanovun nəzarətində olub: "Gətirilən hər mal-qara dolu maşın üçün ona xüsusi pul ödənir. Buna görə də bu əməliyyatları Azər Süleymanov birbaşa nəzarətində saxlayır".

Onu da qeyd edək ki, Nazirlər Kabinetinin qərarı ilə Azərbaycana idxal olunan damazlıq heyvanlar gömrük-idxal rüsumundan azad olunub. Bu baxımdan, işbazların ətlik üçün gətirdikləri malları damazlıq kimi rəsmiləşdirmək istəmələri qeyri-adi görünmür. Lakin Dövlət Baytarlıq Nəzarəti Xidməti rəisinin bu prosesdə iştirakı birbaşa cinayət əməlidir.

Mənbəmizin bildirdiyinə görə, A.Süleymanov xidmətin alqı-satqılarından da ciddi gəlir mənbəyi kimi istifadə edib. Belə ki, baytarlıq laboratoriyaları üçün gətirilən avadanlıqları ucuz qiymətə alıb baha rəsmiləşdirilib. Ölkədə tibbi spirt və pambıq istehsal olunsa da, xidmət yerli məhsulu almayıb. Baha rəsmiləşdirmək mümkün olsun deyə xaricdən alınıb. Məsələn, dabaq xəstəliyinə qarşı olan vaksini 100 dozasını 43 manata rəsmiləşdiriblər. Halbuki qiymət bundan xeyli ucuzdur.

Onu da qeyd edək ki, ötən il baytarlıq laboratoriyaları direktorlarının toplantısında çıxış edən A.Süleymanov bildirib ki, ölkənin bütün rayonlarında baytarlıq idarələri və diaqnostik kabinetlər üçün müasir binalar tikilib, bu binalarda yerləşən diaqnostik kabinetlər müasir laboratoriya avadanlıqları ilə təmin olunub. Bundan başqa, respublikada mövcud olan 111 baytarlıq-sanitariya ekspertiza laboratoriyasının hamısı 27 adda laboratoriya avadanlıqları ilə təmin edilib.

A.Süleymanov həmçinin qeyd edib ki, 7 zona baytarlıq laboratoriyasının tikintisi gedir və ötən ilin sonuna kimi həmin laboratoriyalardan 6-nın tikintisinin başa çatdırılması və avadanlıqlarla təmin edilməsi nəzərdə tutulub.

A.Süleymanov baytarlıq xidmətinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində dövlətimiz tərəfindən bütün tədbirlərin həyata keçirildiyini xüsusi vurğulayıb. Onun çıxışından məlum olur ki, Azərbaycanda olan 12 zona baytarlıq laboratoriyasından 5-i ikinci Bioloji Təhlükəsizlik Səviyyəsində (BTS-2) tamamən yenidən qurulub, müasir laboratoriya avadanlıqları ilə təmin edilib. Qalan 7 laboratoriyanın da bu ilin əvvəlinədək BTS-2 səviyyəsində yenidən qurulması, laboratoriya avadanlıqları ilə təmin edilməsi nəzərdə tutulurdu.

Göründüyü kimi, mal-qara idxalı və laboratoriyaların tikinti-təmiri, həmçinin avadanlıqlarla təminatından A.Süleymanov külli miqdarda qazanc əldə edə bilib. Və onun bu əməlləri artıq yoxlamalar sayəsində üzə çıxmaqdadır. Görünən odur ki, baytarlıq şefi yaxın vaxtlarda yalnız vəzifəsindən deyil, azadlıqdan da məhrum ola bilər...

❑ TURQUT,
"Yenì Müsavat"

YENİ MÜSAVAT
N 100 (6989) 8 may 2018



# "Son 30 ildə torpaqlarımızı işğaldan azad etməyimiz üçün ən əlverişli imkan yaranıb"

## Qüdrət Həsənquliyev: "Biz Rusiyaya deyə bilərik ki, imkan verin, biz bu problemi özümüz həll edək; hətta Rusiya ilə razılaşdırmadan da belə, sonda biz bu cəhdi göstərməliyik"

**Deputat, BAXCP sədri Qüdrət Həsənquliyev Ermənistanda yaşanan gərginlikləri nəzərə alıb, Azərbaycanın konkret addımlar atmasını zəruri sayır. O, vaxtilə səsləndirdiyi sensasion təklifi bir daha səsləndirib. "Yeni Müsavat"a açıqlamasında deyib ki, Azərbaycan hakimiyyəti Rusiya ilə açıq danışıb, Qarabağın geri qaytarılması istiqamətində addım atmalıdır.**

Deputatın sözlərinə görə, hazırda bunun üçün, yaxud düşmənə sarsıdıcı zərbələr vurulması üçün nəinki şans yaranıb, hətta bu, mümkündür: "Hətta kimsə düşünürsə ki, bu, mümkün deyil və ona görə də biz bu istiqamətdə cəhd göstərməməliyik, yanılır. İstənilən halda belə bir cəhd olmalıdır. Mən həmişə demişəm ki, dövlətləri də, insanları da maraqlar birləşdirir. Bu baxımdan Ermənistanda baş verən proseslər onu göstərir ki, bir çox məsələlərdə Azərbaycanla Rusiyanın maraqları üst-üstə düşə bilər. Rusiyanın o prosesdə ayrı marağı var, Azərbaycanın da ayrı. Mənə elə gəlir ki, Rusiya Paşinyanın timsalında oradakı qərbyönümlü insanları tamamilə yandırmağa çalışacaq. Ona görə ki, Paşinyan ali təhsili də olmayan, orta səviyyədən də aşağı intellektə malik şəxsdir. Bu, onun çıxışlarından da o dəqiqə sezilir. Belə bir şəxsin Ermənistan cəmiyyətindəki müxtəlif klanları, maraq dairələrini uzlaşdıra biləcəyi və dərin, ciddi islahatlar aparacağı ciddi şübhə doğurur. Qarabağ klanının da hakimiyyəti çox asanlıqla əldən verəcəyi inandırıcı deyil".

**Q.Həsənquliyev hesab edir ki, hakim klan məqsədyönlü şəkildə, Rusiyanın tapşırığı ilə geri çəkildi:** "Ona görə ki, Paşinyan ilkin dövrdə meydanlara 2-3 min adam ancaq yığa bilirdi. Rusiya istəsəydi, aksiyaları çox asanlıqla dağıda bilərdi. Amma Moskvadan verilən tapşırıq əsasında Sərkisyan bunu etmədi. Yeni Sərkisyana belə bir səlahiyyət verilmədi. İnsanlar da bir çox hallarda gücünün arxasınca gedirlər. Onlar görəndə ki, Sərkisyan artıq qərar qəbul edə bilmir və mövqelərini itirir, ona görə də yeni gələcək hakimiyyətin yanında olmaq üçün birləşdilər, Paşinyanın liderliyi ilə başladılan o prosesə dəstək verdilər".

**Rusiyanın nə səbəbə buna imkan yaratdığına gəldikdə, Q.Həsənquliyev bunları bildirdi:** "Çünki Rusiya görürdü ki, Ermənistan cəmiyyətində qərbyönümlü meyilliliyi artır. Həmin qərbyönümlü siyasəti iflasa uğratmaq üçün məhz Paşinyanın liderliyi ilə proses başladıldı. Bir var orada ağıllı, təhsilli, savad sahibi olan, hakimiyyət, idarəetmə təcrübəsinə malik bir insan bu prosesin başında durardı, onda Rusiya bəlkə də başqa cür davranacaqdı. Rusiya görəndə ki, hərəkatın lideri Paşinyandır, çox böyük həvəslə ona yaşıl işıq yandırdılar ki, hakimiyyəti götürsün. Ona görə ki, erməni xalqı tezliklə çox böyük bir xəyal qırıqlığına düçar olacaq. Bunun nəticəsində də xalq hər şeyə inamını o qədər itirəcək ki, uzun müddət, bəlkə də növbəti 30 il ərzində Rusiya orada asanlıqla istədiyi adamı hakimiyyətə gətirəcək, istədiyini uzaqlaşdıracaq. Rusiyada da hərəkatı o cür məğlubiyyətə düçar etməyin ən asan yolu budur. 1993-cü ildə də Azərbaycanda demokratik hərəkatı o cür yandırdılar. Əvvəlcə Kəlbəcəri işğal etdilər".

**Deputat yenə də o fikirdədir ki, indiki situasiyada Azərbaycan Rusiya ilə danışıb Dağlıq Qarabağ ətrafındakı torpaqları işğaldan azad edə bilər:** "Ondan sonra Ermənistanda yüz faiz bir "Surət Hüseynov" tapılacaq və tankların üzünü İrəvana çevirəcək, nəticədə Ermənistanda hakimiyyət dəyişikliyi olacaq. Bundan sonra Ermənistan əhalisi uzun illər siyasi proseslərdən kənarda qalacaq. Azərbaycan, sadəcə olaraq, qorxmamalıdır, daha cəsarətli və ağıllı siyasət yürütməlidir, Rusiya ilə danışmalıdır. Mən bilirəm, bizim siyasi elitada belə fikirlər var ki, Rusiyanın Azərbaycanın daxili siyasətində mövqelərini gücləndirməsi təhlükəlidir. Yəni bu, ona gətirib çıxara bilər ki, 2013-cü ilin prezident seçkilərindəki kimi, Rusiya yeni bir Rüstəm İbrahimbəyovu Azərbaycana göndərə, Azərbaycanda hakimiyyət dəyişikliyinə cəhd edə bilər. Amma hesab edirəm ki, xüsusilə Dağlıq Qarabağdakı qələbələrdən sonra xalqın iqtidara dəstəyi daha da artacaq və Rusiyanın belə bir imkanları olmayacaq".

**Q.Həsənquliyev hesab edir ki, biz, sadəcə, öz siyasətimizdə Rusiyanın regiondakı maraqlarını nəzərə almalıyıq:** "Suverenliyimizə xələl gəlmədən biz KTMT-nin də üzvü ola bilərik, Avrasiya İqtisadi Birliyinin də, Gömrük İttifaqının da. Yəni Rusiyanın liderliyi ilə regionda yaradılmış birliklərə üzv ola bilərik. Bunun üçün əlbəttə, Rusiya ilə danışmaq lazımdır. Ona görə də mən öz təəccübümü də gizlətməmişdim, indiyə qədər necə olur ki, bizim xarici işlər naziri hələ Rusiyaya səfər etməyib? Azərbaycan həm Rusiya, həm KTMT-nin digər üzvləri, Belarus, Qazaxıstan və digər ölkələrlə intensiv danışıqlar aparmalıdır. Biz müəyyən mənada həm də risk etməliyik. Böyük risklər olmayan yerdə böyük qələbələrdən də söhbət gedə bilməz. Bəlkə də son 30 ildə bizim torpaqlarımızı işğaldan azad etməyimiz üçün ən əlverişli bir imkan yaranıb. Hər halda, Azərbaycan bu şansdan maksimum dərəcədə istifadə etməyə çalışmalıdır".

**Deputat xatırlatdı ki, Nikol Paşinyanın Dağlıq Qarabağ məsələsi ilə bağlı mövqeyi Serj Sərkisyandan da sərtdir:** "Ona görə nə vaxtsa Ermənistan hakimiyyətinin başına Dağlıq Qarabağın və ətraf rayonların Azərbaycana qaytarılmasına razılıq verəcək bir şəxsin gələcəyini gözləmək özünü aldatmaqdan başqa bir şey deyil. İndiyə qədər aparılan danışıqlara o halda bəraət qazandırmaq olar ki, biz zaman udmuşuq, neft müqavilələrini imzalamışıq, Azərbaycana böyük pullar gəlib, ölkəmiz bunun hesabına güclü ordu qurub, iqtisadiyyatını dirçəldib. Amma bundan sonra daha 30 il gözləmək ona gətirib çıxaracaq ki, 60 il "müstəqil" yaşamış bir qurumu - hətta o, qondarma olsa da belə - biz heç vaxt yenidən Azərbaycanın tərkibinə qaytara bilməyəcəyik. Çünki dünya da bunu qəbul etməyəcək və biz Qarabağı həmişəlik itirəcəyik. Necə ki, indi Zəngəzurdan, İrəvan şəhərindən danışırıq, Qarabağdan da o cür danışacağıq. Ona görə də borcumuzdur ki, biz daha cəsarətli, düşünülmüş və ağıllı bir qərar qəbul edək".

**Q.Həsənquliyev vurğuladı ki, nəyisə qazanmaq üçün nələrisə güzəştə getmək lazım gəlir:** "Biz Dağlıq Qarabağ ətrafındakı rayonları azad edib, sonra Dağlıq Qarabağa Azərbaycanın tərkibində geniş muxtariyyət verməklə bu problemi çözə bilərik. Onun üçün də bizim diplomatiyamız bütün gücü ilə çalışmalıdır".

**BAXCP sədri Ermənistanda yaşanacaq gərginliklərin sonrakı mərhələlərini gözləməyi təklif edən və prosesə müdaxilə etməyi doğru saymayanlarla razılaşmır:** "Lap tutaq ki, sabah İrəvanda silahlı vətəndaş qarşıdurması başlasın, əgər biz Rusiyanın xeyir-duasını ala bilməyəcəyiksə, bizim genişmiqyaslı hərbi əməliyyatlara başlamağımız yenə də çox risklidir. Mən hər zaman demişəm ki, əgər Rusiya heç bir halda bizə torpaqlarımızı azad etməyə imkan verməyəcəksə, hətta Rusiya ilə razılaşdırmadan da belə, sonda biz bu cəhdi göstərməliyik. Amma fikrimcə, indi Rusiya ilə müəyyən məsələlərdə anlaşmağa imkan var. Ermənistanda da elə bir durum yaranıb ki, mən əminəm, bir müddətdən sonra orada ciddi vətəndaş qarşıdurması yaranacaq. Yəni Paşinyan uzun müddət ölkədə sabitləşdirici bir fiqur, barış adamı kimi rol oynaya bilməyəcək, buna onun intellekti, təcrübəsi yetməyəcək. İkincisi, Qarabağ klanı məqsədyönlü şəkildə geriyə bir addım atıb, onların mütləq əks zərbəsi olacaq, Paşinyanın sözü ilə desək, əksinqilab qalib gələcək. Amma ola bilsin indi yox, Paşinyanı və qərbyönümlü qüvvələri tamamilə sıradan çıxartmaq üçün bir müddətdən sonra. Amma o qüvvələri "yandırmağın" ən yaxşı yolunu Azərbaycan təklif etməlidir, bu da dediyim kimi. 1993-cü ildə biz özümüz onları yaşamışıq. O zaman BMT Təhlükəsizlik Şurasının Kəlbəcərin azad olunması ilə bağlı qətnaməsi var idi, amma ermənilər nəinki Kəlbəcəri azad etmədilər, hakimiyyət boşluğundan istifadə edib, Dağlıq Qarabağ ətrafındakı rayonları da işğal etdilər. Məncə, biz Rusiyaya deyə bilərik ki, imkan verin, biz bu problemi özümüz həll edək. Burada danışıqlardan, cəsarətli və ağıllı siyasətdən söhbət gedir".

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

# Erməni ilə ailə qurmağa qanun və din nə deyir...

## Əsabəli Mustafayev: "Qanunun tətbiqində dini, irqi, milli, etnik ayrı-seçkilik qadağan olunub"

## Samir Ağayev: "Dinimiz birmənalı şəkildə qeyri-müsəlmana qız verməyi qadağan edir"





**Ötən həftənin gündəm mövzularından biri də Rusiyada fəaliyyət göstərən Azərbaycan Milli Mədəni Muxtariyyətinin Moskva regional bölməsi sədrinin qızının erməni oğlanla ailə həyatı qurması oldu. Moskvada yerləşən erməni iş adamlarına məxsus restoranların birində baş tutan nikah mərasimində azərbaycanlılarla yanaşı ermənilər də iştirak etmişdi. Həyat yoldaşı da erməni olan Ağakişi Kərimov adlı diaspora nümayəndəsinin ailəsində baş verənlər Moskvada yaşayan azərbaycanlılar, o cümlədən ölkə ictimaiyyəti tərəfindən qəzəblə qarşılandı.**

Bəs görəsən, cəmiyyətin bu cür kəskin reaksiya verdiyi faktla bağlı qanunvericilik nə deyir? Qanunlarımız erməni ilə ailə qurmağı qadağan edirmi?

"Yeni Müsavat"a açıqlamasında bu sualı cavablandıran **hüquqşünas Əsabəli Mustafayev** bildirdi ki, əksinə, qanunvericilikdə nikahın dövlət tərəfindən qeydə alınması ilə bağlı irqi, milli, dini və etnik ayrı-seçkiliyə yol verilməsi qadağandır: "Qanunlarımızda erməni ilə ailə qurmağı qadağan edən hər hansı maddə yoxdur. Hazırda da ölkəmizdə 30 min nəfər erməni gəlin var. Qanun icazə verir. Əksinə, qanunun tətbiqində dini , irqi, milli, etnik ayrı-seçkilik qadağan olunub. Kim kiminlə istəsə ailə qura bilər. Nikahın qeydə alınmasından imtina olunması məsuliyyət yaradır".

**Ermənistanla Azərbaycan arasındakı Dağlıq Qarabağ münaqişəsini və onların millətimizə qarşı törətdikləri soyqırımları nəzərə alaraq, ermənilərlə ailə qurmağı qadağan edən qanunun qəbul olunmasına gəlincə, Ə.Mustafayev bunun mümkün olmadığını bildirdi:** "Çox güman ki, heç zaman buna gedilməyəcək. Bu, açıq-aşkar etnik ayrı-seçkilik deməkdir və beynəlxalq aləmdə çox böyük qınaq yarada bilər. Ona görə də bu məsələni qaldırmaq belə düzgün deyil. Bu hər insanın öz mənəvi məsələsidir, onun xalqına, tarixinə nə qədər bağlı olması məsələsidir. Onu da nəzərə almaq lazımdır ki, Rusiyada vəziyyət bir qədər fərqlidir. Orada yaşayan ermənilər və azərbaycanlılar bu konfliktdən müəyyən qədər uzaqdırlar. Uzun müddətdir Rusiyada yaşayanlar özlərini bu münaqişədən kənarda hiss edirlər. Orada bu cür hadisələr tez-tez baş verir. Görünür, sonuncu hadisədə ailə başçısı diaspor rəhbəri olduğu üçün məsələ belə ictimai rəng aldı. Bu cür məsələlərin ciddi şəkildə qaldırılması ölkənin nüfuzunu yüksəldən amillərdən deyil".

**Bəs qeyri-din və qeyri-millətdən olan şəxslərlə ailə qurmağı İslam dini qadağan edirmi?**

**"Yeni Müsavat"a açıqlamasında bu sualı cavablandıran ilahiyyatçı Samir Ağayev bildirdi ki, İslam dini qeyri-müsəlmanlara qız verməyi qadağan edir:** "Dinimiz birmənalı şəkildə qeyri-müsəlmana qız verməyi qadağan edir. Şəxsin xristian və ya yəhudi olmasının, hansı millətdən olmasının fərqi yoxdur. Əsas amil onun müsəlman olub-olmamasıdır. Qurani-Kərimdə də buna işarə edən ayələr var. Həzrəti Məhəmməd peyğəmbərin sünnəsində də bunu qadağan edən kəlamlar var. Müsəlman aləminin tarixi ənənəsi də göstərir ki, buna heç zaman yol verilməyib.

Qeyri-müsəlmanlardan qız almağa isə dində icazə var".

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**



# Ləğv edilmiş idman dərsi

Zamin HACI
zaminhaci@gmail.com

"Bağışlayın, - naməlum şəxs mülayimcəsinə cavab verdi, - idarə etmək üçün gərək, heç olmasa, müəyyən bir müddətə dəqiq planın ola. İcazənizlə soruşum, insan necə idarə edə bilər ki, gülməli dərəcədə qısa bir müddət üçün, deyək, min il üçün plan qurmaq imkanına malik olmadığı bir yana, hətta öz sabahkı gününə belə cavabdeh deyil?!"

**(Bulqakov, "Master və Marqarita")**

****

**"Əri döyən arvadı, it də tutdu bir yandan" - bu ata sözümüz nədənsə son günlər yadımdan çıxmır. Düzü, bunun səbəblərini anlamıram. Misal üçün, bir uşağın valideyni əsib-coşub axmaq video hazırlamışdı, guya bunun gül balasını məktəbdə çırpıblar. Təzə təhsil nazirimiz isə özünü göstərməyə fürsət axtarırmış kimi dərhal müəllimi işdən qovdu. Sonradan isə ortaya video çıxdı: sən demə, valideyn özü uşağı məktəbdə döyürmüş.**

O cümlədən bəzi yuxularımı yozmağa çətinlik çəkirəm. Örnək üçün, dünən gecə yuxuda bir telekanalımızda intellektual verilişə qatılmışdım, aparıcı gözgörəsi, qəsdən məni uduzdurdu. Hətta verilişdə həyasızcasına, üzümə gülərək etiraf elədi ki, məni qəsdən uduzdurur. Studiyada toplaşanlar isə buna əl çaldılar! 6 mayda doğum günü qeyd olunan Freyd kimi alimimiz də yoxdur yanına gedəsən, izah edə. Biz heç dişimizi düzəltdirməyə həkim və pul tapmırıq, gəl gör başımızın içi və yuxular ola... Bir psixiatrımız var idi, ölüb, o üzdən adını çəkmirəm, bambılı, alabəzək şərflər bağlayıb bütün günü efirdə veyllənirdi, di gəl rəhbərlik elədiyi xəstəxanaya girəndə pis iydən burun tutulurdu. Xəstələri zəncirləyib gəzdirirdi. Ancaq zırramanın cəmiyyət arasında necə hörməti vardı!

Mən indi o döyülən uşağın əhvalatına qayıtmaq istəyirəm. Bir neçə gün müzakirə getdi ki, uşağın alnını görəsən kim göyərdibdir *(bir aktual filoloji müzakirə də mən açım, videoda baxdım, əslində uşağın alnı göyərməmişdi, qızarmışdı. Bizdə dilçilik olduqca önəmlidir, uşaqları orfoqrafik-orfoepik lüğətlər əsasında çırpmalıyıq. Qoy başlarına bir şey girsin).* Doğrusu mən böyük fərq görmürəm. Uşağı kim vurubdur, fərqi varmı? Anası döyə bilər, müəllim yox? Baba nəvəsinə "qulağını kəsərəm" desə olar, qonşu desə cinayətdirmi? Bunlar hamısı araşdırılmalıdır. Ciddi surətdə. "Surəti halım görən, surət xəyal eylər məni" - şairdən beytin məqamıdır.

Kəlləmayallaq formada yaşamaqdayıq. Məktəbə valideyn iclasına çağırmışdılar. Direktor müavini deyir ki, uşaqlarınızın dərsə davamiyyətinə fikir verin, gündəliyinə baxın, dərsdən qaçmağa qoymayın. Fikirləşirəm ki, görəsən, özü niyə buna əməl eləmir, çünki hər həftə uşağa elə bunun özü bir-iki saat dərs keçməlidir, di gəl uşaq hər həftə həmin vaxt evdə olur: "Müəllim buraxdı, dedi çıxın gedin". İndi bu müəlliməyə nə deyəsən? Sonra riyaziyyatdan qiymətlər açıqlanır: 125 şagirddən 52 nəfəri imtahanda "0" (sıfır) bal toplamışdır. Bunun günahı isə valideynlərdə imiş. Gərək biz evdə uşağa hər gün triqonometriya keçək. Qonşum şofer Səlimdən heç gümanım yoxdur, məncə, o, öz uşağına kosinusla tangensin fərqini lapatka sapı ilə başa salacaqdır. Göysatan Bəsti nənə isə paralelepipedin sahəsini düzgün hesablamaqda çətinlik çəkəcəkdir. Bəs müəllimlərin heç günahı yoxdurmu? Əlbəttə, yoxdur. Onlar seçki işlərini 100 faiz uğurla 150 faiz çığır-bağırla həyata keçirmişlər. Daha nə lazımdır? Sözgəlişi, çarımız Putini də təbrik edirik, növbəti sroku münasibətilə.

İdiotizm isə ondadır ki, məktəbin eşşək boyda idman zalı var, ancaq idman dərsləri de-fakto ləğv edilibdir. Direktorun sözünə görə zal bütün siniflərə çatmır. İdman dərsinin yerinə riyaziyyat keçirlər, həmin riyaziyyatdan isə 52 nəfər sıfır alır. Halbuki uşağa imkan verilməlidir hoppansın, cırmaqlaşsın, yumruqlaşsın, turnikləşsin, dümsükləşsin, sümsükləşsin. Axı bizdə idman dövlət siyasətidir! Heç olmazsa uşaq gələcəkdə kimisə yerə çırpıb himnimizi ucaldar, buna görə ona ev verilər, maşın verilər, yol polisində iş verilər və sairə verilər. İndiki halda uşağı nə gözləyir? Heç zad. Riyaziyyatı ləğv edib idman keçmək əvəzinə axmaq işlərlə məşğuldurlar, perspektivsiz şəkildə uşaqların gələcəyini məhv edirlər.

Əsəbləşib məktəbdən çıxmaq istəyirsən, ancaq qapıçı məktəbin 40 qapısından yalnız birinin bir tayını açıbdır. Ordan da saniyədə 7 uşaq, 3 müəllim, 4 valideyn və sairə ünsürlər sürtüşərək keçməlidir. Qapı açılmaq üçündürsə, bunun niyə həmişə yalnız bir tayı açıqdır? Sirli məsələdir. Bizdə qapı bağlanmaq funksiyasını daşıyır. Yalnız.

İndi söz əlaqədar təşkilatlarındır - görüm sizi it tutsun.

# İrəvana qarşı Kremlin yeni təhdidi - çempionat bitən kimi...

**Dünən Rusiya prezidenti Vladimir Putin and içdi. Bununla da onun rəsmən 6 illik prezidentlik dönəmi başladı. Artıq ölkənin daxili və xarici siyasəti, bütövlükdə ölkənin taleyi ilə bağlı Putinin ən kritik qərarlar verməsi üçün formal maneə də qalmayıb.**




# "Moskva qisas alacaq!.." - Ermənistanda revanş panikası

## Putin and içəndən bir gün sonra işğalçı ölkə özünə 1-ci şəxsi seçməlidir; erməni analitiklər həyəcan təbili çalır: "Kreml bizi qan gölündə boğmaq istəyir"; "Hadisələrin istənilən inkişaf ssenarisinə hazır olmalıyıq..."

Sözsüz ki, qarşıdakı illərdə Putin ilk növbədə nəzər-diqqəti "Yaxın xaric"ə - postsovet məkanına, o sırada da Rusiyanın maraqlar sferasında "arxa bağça" saydığı Cənubi Qafqaza yönəldəcək. Burada hərbi və iqtisadi cəhətcə daha da möhkəmlənməyə çalışacaq. Moskvanın möhkəmlənmək üsulları isə bəlli: hərbi güclə təhdid, şantaj və hətta hərbi müdaxilə (Ukrayna, Gürcüstan).

*****

Buna da şübhə yox ki, qarşıdakı 6 ildə ilk növbədə Rusiyanın dost-müttəfiqləri etibarlılıq testindən keçiriləcək. O sırada son illər Qərbə sarı fəal boylanmalar edib "iki stul"da oturmağa çalışan, hazırda isə "məxməri inqilab" dönəmini yaşayan şıltaq Ermənistan öndə gəlir.

Rusiya isə özünün siyasi orbitində demokratik rejimlərin mövcudluğunda maraqlı deyil. Çünki özü demokratik dövlət deyil və demokratik rejimlər ən azından, onun üçün diskomfort, qıcıq yaradır. Gürcüstan olayları görkdür. Əlalxüsus Ermənistan kimi quberniya statusu daşıyan formal dövlətdə demokratik rejimin qurulmasına Moskva heç dözməz - hansını ki, guya Nikol Paşinyan bərqərar eləmək istəyir.

Ən maraqlısı da budur - mayın 8-dən, Paşinyanın baş nazir olmasından sonra (əgər Moskva ona əngəl yaratmasa) baş verəcək proseslər olacaq. Bəs vassal Ermənistanın "demokrat" rəhbəri Paşinyan avtoritar və imperiyapərəst Rusiya və onun lideri ilə dil tapa biləcəkmi?

*****

**Bu xüsusda erməni təhlilçilərinin qeydləri ilə tanış olmağa dəyər.**

"Rusiya nə vaxt ki, bizdə ölkənin dövlət maraqlarını dərk edən hakimiyyət formalaşanda Ermənistanı qan gölündə boğdu. 2008-ci il martın 1-də Rusiyanın himayəsi ilə azadlıq istəyən Ermənistan vətəndaşları güllbaran edildilər. "Yeni Müsavat"ın məlumatına görə, bu barədə erməni siyasi şərhçi Sərkis Arsruni 1 in.am nəşrindəki "Moskva Ermənistanı qan gölündə boğmaqla hədələyir" sərlövhəli təhlili məqaləsində yazıb.

**Müəllif ardınca qeyd edir:** "Şübhəsiz ki, indi - bu dramatik günlərdə də iki Rusiya hərbi alayı Ermənistana gələcək. Hərçənd indi onları dəvət edən yoxdur: Serj Sərkisyan getməyi üstün tutdu, Karen Karapetyanı isə meydanlara yığışan xalq və ERP (hakim partiya - red.) oyundan çıxardı. Bəs Kremlin revanş təhlükəsi sovuşubmu? Qətiyyən. Və hələlik aydın deyil ki, Rusiya iyunda futbol üzrə Dünya Çempionatına ev sahibliyi eləməsəydi, özün necə aparardı. Biz belə düşünməyə meylliyik ki, Moskvada daim revanş haqda düşünür və yalnız əlverişli fürsət gözləyir ki, Ermənistanda öz dayağını - kriminal oliqarxik sistemi bərqərar eləməklə Nikol Paçinayanın ətrafını "minalasın"".

*****

**"Böyük təhlükə var ki, Vladimir Putinin andiçməsindən sonra Rusiya Ermənistanda öz mövqelərini geri qaytarmağa çalışacaq". Bu təlaş isə Armenianreport nəşrindəki "İnauqurasiyadan sonra Putin Ermənistanla məşğul olacaq" başlıqlı analitik məqalədəndir.**

**"Yeni Müsavat"ın məlumatına görə, yazıda daha sonra deyilir:** "Ölkəmizdə baş verənləri Kremldə dövlət çevrilişi hesab edirlər. Orada artıq Paşinyanı gözdən salmaq komandası verilib. Görünür, Kremldə heç kim Paşinyanın "Rusiya ilə əlaqələr əvvəlki səviyyədə qalacaq" vədinə inanmır. Əslində onlar haqlıdırlar. Çünki bizim ölkəmizdə daha keç kəs Rusiya ilə "müttəfiqliyə", Ermənistan qarşı satellit münasibətə dözmək fikrində deyil - hansı "müttəfiqlik" fonunda ki, Moskva bizim düşmənlərimizi silahlandırır və Ermənistanın blokadadan çıxmasına kömək eləmir".

**Müəllif daha sonra yazır:** "Ermənistanda baş verənləri Rusiyada qiyam kimi qəbul edirlər. Və bu qiyamı onlar mütləq yatırdacaqlar. Sual yalnız budur ki, hansı şəkildə. Biz hadisələrin istənilən inkişaf ssenarisinə, hətta ən sərt varianta hazır olmalıyıq. Bu mənada Nikol Paşinyan tamamilə tələsik bəyan edir ki, Rusiya bizim daxili işlərimizə qarışmayacaq. Mümkündür ki, o, sadəcə, məcburiyyətdən belə ritorika sərgiləyir. Axı ondan ötrü mühüm olanı qarşıya qoyduğu hədəfə çatsın və həqiqi mənada xalqın baş naziri olsun. Kreml Serj Sərkisyan və Robert Köçəryan vasitəsilə artıq əks-inqilaba cəhd edib. Bu cəhd kütləvi etiraz aksiyaları və bütün obyektlərin ağıllı blokadası ilə aradan qaldırılıb. Lakin Rusiya tərəfdən yeni qisas aktı təhlükəsi qalır. Həm də o səbəbə ki, Putin Ermənistan nümunəsinin Rusiya üçün yoluxucu ola biləcəyini anlayır. Sərkisyandan fərqli olaraq, Putinin qaçmağa yolu yoxdur. Çünki ruslarda çara sevgi ilə nifrət arasında cəmi bir neçə saniyəlik yol olur və qanlı haqq-hesaba gətirir. Ona görə də Sərkisyandan fərqli olaraq Putin qan tökülməsinə gedəcək".

*****

Yuxarıdakı sitatlardan da aydınca görünür ki, erməni cəmiyyətində, onun ekspert camiyəsində bir yandan Nikol Paşinyanın "rəngsiz" inqilabından dolayı bir eyforiya yaşanırsa, o biri yandan Rusiya sarıdan bir təlaş var. Bu da əslində haqlı təlaşdır. Vassalın azadlığı yalnız sahibi icazə verdikdə mümkündür. Əks halda, erməni özfəaliyyətin ağır bədəlinə hazır olmalıdır - Rusiya ilə olmaq istəməməyin bədəlinə...

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**



# Azərbaycan-Aİ əməkdaşlığında daha bir önəmli addım

**Prezident İlham Əliyev:** "Azərbaycanın ticarət dövriyyəsində ən böyük pay sahibi Avropa İttifaqıdır"; Avropa İttifaqının böyük nümayəndə heyəti Azərbaycanda

**Mayın 7-də Azərbaycan prezidenti İlham Əliyev Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin sədri, Avropa Mühafizəkarlar və İslahatçılar Qrupunun üzvü, Böyük Britaniyadan olan deputat Sayyad Kərimin başçılıq etdiyi Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin üzvlərindən ibarət nümayəndə heyətini qəbul edib.**

Prezidentin mətbuat xidmətinin yaydığı xəbərə görə, Avropa İttifaqı ilə əlaqələrin uğurla inkişaf etdiyini bildirən dövlət başçısı Avropa Komissiyasında keçirilən son görüşlərini məmnunluqla xatırladıb və bu səfərin nəticəsi kimi yeni saziş üzərində işlərin başlandığını deyib.

Prezident İlham Əliyev qeyd edib ki, eyni zamanda Azərbaycan Avropa İttifaqına üzv dövlətlərin üçdə biri ilə artıq strateji tərəfdaşlıq sənədi imzalayıb və ya qəbul edib. Bunu əlaqələrimizin yaxşı göstəricisi kimi dəyərləndirən prezident İlham Əliyev əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, təhlükəsizlik, mədəni, ticarət və enerji təhlükəsizliyi sahələrində həyata keçirildiyini qeyd edərək Avropa İttifaqının Azərbaycanın ən böyük ticarət tərəfdaşı olduğunu, öz növbəsində Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunun getdikcə daha da artdığını vurğulayıb.

Nəqliyyat infrastrukturu sahəsinə toxunan dövlət başçısı ötən il istismara verilən Bakı-Tiflis-Qars dəmir yolu xəttinin Asiya ilə Avropa arasında mühüm nəqliyyat körpüsü rolunu oynadığını və Azərbaycanın Avrasiya məkanında önəmli nəqliyyat qovşağına çevrildiyini bildirib. Prezident İlham Əliyev əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin sədri Sayyad Kərim və nümayəndə heyətinin üzvləri Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə dövlət başçısını təbrik ediblər. Sayyad Kərim son iki il ərzində Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın çox müsbət və konstruktiv istiqamətdə inkişaf etdiyini məmnunluqla bildirib. O, Avropa İttifaqı ilə Azərbaycan arasında 2017-ci ildə başlanan danışıqların uğurla davam etdirildiyini qeyd edib. Azərbaycana səfər proqramının çox sıx olduğunu qeyd edən Sayyad Kərim tərəflərin əməkdaşlığın inkişafında maraqlı olduğunu və Azərbaycanın Milli Məclisi ilə əməkdaşlıq üçün yaxşı əsas yarandığını vurğulayıb. Sayyad Kərim təmsil etdiyi qurumun Azərbaycanla iqtisadi, nəqliyyat, enerji, investisiya, parlamentlərarası əlaqələr və digər sahələrdə əməkdaşlığı üçün böyük imkanların olduğunu deyib.



Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Prezident İlham Əliyev münaqişənin həlli ilə bağlı Azərbaycanın mövqeyini bildirib.

Qeyd edək ki, Azərbaycanla Avropa İttifaqı arasında yeni saziş üzrə danışıqlar ötən ilin fevralından başlayıb. Azərbaycan prezidenti İlham Əliyevin ötən ilin fevralında və noyabrında Brüsselə səfərləri və Avropa İttifaqının rəhbərliyi ilə keçirdiyi görüşləri əlaqələrimizin inkişafına xüsusi təkan verib və rəsmi olaraq Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlığa dair yeni saziş layihəsi üzrə danışıqlar başlayıb.

Azərbaycanın Avropa İttifaqının 9 üzv ölkəsi ilə strateji tərəfdaşlıq əlaqələrinə malik olması Avropa İttifaqı əməkdaşlığımızın inkişafı üçün əlavə stimul verir. Avropa İttifaqı və onun üzv dövlətləri ilə Azərbaycan Respublikası arasında «Vahid aviasiya məkanına dair Saziş" layihənin yekunlaşdırılması üzrə danışıqlar aparılıb.

Azərbaycanın ticarət dövriyyəsində ən böyük pay sahibi Avropa İttifaqıdır. Siyasi, iqtisadi, ticarət, enerji, investisiyalar, nəqliyyat və humanitar sahələrdə tərəflər arasında daha sıx əməkdaşlıq üçün geniş və əlverişli imkanlar var. TAP layihəsinin müəyyən edilmiş qrafikə uyğun olaraq həyata keçirilməsi üçün Avropa İttifaqı, o cümlədən İtaliya tərəfi və digər tərəfdaşlarla qarşılıqlı anlaşma şəraitində birgə səylər davam etdirilir. Fəaliyyətə başladıqdan sonra yeni enerji mənbəyi və marşrutu olaraq TAP layihəsi və bütövlükdə Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyinə öz əsaslı töhfəsini verəcək.

Azərbaycan Avropa İttifaqı ilə "Şərq Tərəfdaşlığı" proqramı müstəvisində əməkdaşlıq edir. Bu əməkdaşlığın bir çox sahələrində həm də çoxtərəfli platforma var. "Şərq Tərəfdaşlığı" orada iştirak edən ölkələrin Aİ ilə daha da yaxınlaşması üçün imkanlar yaradır. Avropa İttifaqı əvvəlcə Moldova, sonra isə Gürcüstan və Ukrayna vətəndaşları üçün vizasız rejim tətbiq edib. Azərbaycan Aİ ilə saziş imzalayandan sonra Azərbaycanla da vizasız rejim tətbiq ediləcək.

Danışıqlar prosesinin uzanması və saziş imzalanmasını yubadan bir sıra faktorların olduğu bildirilir. Bir sıra politoloqların fikrincə, bu prosesin uzanmasına və uğurla yekunlaşmasına bir neçə faktor mane olur. İki başlıca səbəb var. Birinci səbəb xarici amildir. Rusiya amili var. Rusiya Azərbaycanın Avropa İttifaqı və Avroatlantik institutlarla yaxınlaşmasına çox aqressiv reaksiya göstərir. Rəsmi Bakı da bundan ehtiyatlanır.

İkinci səbəb daxili amildir. Avropa İttifaqı ilə yaxınlaşmaq ölkədə siyasi islahatların, ən başlıcası isə azad və ədalətli seçkilərin keçirilməsini tələb edir. Avropa İttifaqı ilə saziş imzalamaq üçün ilk növbədə Azərbaycan gərək Ümumdünya Ticarət Təşkilatına üzv olsun. Azərbaycan da Ümumdünya Ticarət Təşkilatına hələ ki üzv olmur.

Avropa İttifaqı ilə saziş layihəsi hazırlanması prosesində Azərbaycan tərəfindən danışıqları aparan məsul şəxs xarici işlər nazirinin müavini Mahmud Məmmədquliyevdir.

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Qarabağ klanı Paşinyandan necə qurtulmağı düşünür?..



**Hüseynbala SƏLİMOV**

**Ən son xəbərlərdən belə məlum oldu ki, böyük çətinliklərlə olsa da Ermənistanın hakim partiyası N.Paşinyana dəstək olmağa razılıq verib - guya onları buna hətta S.Sərkisyanın özü təhrik edibdir.**

Düzdür, adam hətta bu xəbərlərə də bir az şübhə ilə yanaşır, çünki riyakarlıq, gündə bir söz demək, cəmi ermənilər kimi onların siyasətçiləri üçün də xarakterikdir.

Amma indiki məqamda bu addım çox məntiqli görünür. Axır ki, hakim partiyanın strateqləri başa düşdülər ki, yaxın vaxtda yeni seçkilərə getmək onların maraqlarına qətiyyən cavab vermir. Aydın məsələdir ki, yaxın aylarda növbədənkənar seçkilər keçirilərsə N.Paşinyan tərəfdarları daha çox mandat qazanarlar.

Elə bu səbəbdən də düşünürük ki, Serj və komandası başqa yol seçdi - deputat və jurnalist N.Paşinyanı hakimiyyətə buraxmaq. Hətta onunla bir hökumət belə qurmq istəmədilər. Səbəbi də budur ki, Serj və komandası N.Paşinyanın siyasi cəhətdən tezliklə iflasa uğrayacağını təxmin edirlər.

Əsasları da budur ki, Paşinyan tək bir fiqurdur, Ermənistan isə problemlər ölkəsidir və üstəlik, bu problemlər tək sosial-iqtisadi xarakter daşımır, bunun hətta geosiyasi tərəfləri də var.

Artıq indidən ruslar Ermənistanda ABŞ-ın təsirinin artacağını proqnozlaşdırırlar. Elə daxili problemlər də heç də az aktual deyil. Tək adam N.Paşinyan nə edəcək? Xüsusən də nəzərə alanda ki, bu problemlər nəinki bir, hətta bir neçə hökumətin belə həll edə biləcəyi ölçüdə deyil, o halda görürsən ki, Sarqsyan və tərəfdarları çox da böyük xətaya yol vermirlər-onların hesablamaları məntiqlidir.

Bəli, Paşinyan meydanda tək görünür. Bir tərəfdən bu boyda işi bir adamın görə biləcəyi, bu qədər etirazı bir adamın təşkil edə biləcəyi elə də inandırıcı görünmür. Amma kadr önündə heç kim yoxdur, tək Nikol müəllim özüdür.

Düzdür, bu adam hətta regionlarda da "inqilabi komitələr" yaratmağa qərar vermişdisə, deməli o, tamamilə tək də deyildi. Bir daha deyirik ki, bir adamın görə biləcəyi iş deyildi bu...

Elə Serjin adamlarının N.Paşinyanın arxasında güclü partiyanın olmaması haqda dedikləri də tam həqiqəti əks etdirmir. Nikol müəllimin parlamentdə 7-8 deputatı vardı. Bəli, bu, zəif bir partiya olsa da, hər halda təşkilatdır. Həm də güclü və zəif partiya məsələsi şərait məsələsidi - bugünün zəif partiyası sabahın güclü təşkilatı da ola bilər.

Baş nazir seçilərsə, N.Paşinyanın uğuru onun həm də kim, nə qədər siyasətçil adam olmasından asılı olacaq. Ermənistanda böyük korrupsiya var və bunun böyüməsində S.Sargsyan hakimiyyətinin də rolu az deyildi. O səbəbdən də hakimiyyətə gələndən sonra o, da korrupsiyaya müharibə elan edərsə, o halda indiki hakim partiyanı iflic hala sala bilər.

Güman ki, N.Paşinyan bunu edəcək, əks təqdirdə Dağlıq Qarabağ klanının Ermənistan siyasi həyatındakı rişələrini qopartmaq mümkün olmayacaq. Xüsusən də nəzərə almaq lazımdır ki, bu klan hərbi müstəvidə çox güclüdür və onları hakimiyyətə gətirən də elə bu olubdur.

Həm də Nikol hakimiyyətə gələcəyi bir təqdirdə növbədənkənar parlament seçkilərini heç bir halda ləngitməməlidir, çünki zaman onun əleyhinə işləyəcək. İndisə elə bir vaxtdı ki, hakim partiyanın reytinqi çox aşağıdır, necə deyərlər, dövran Paşinyanın dövranıdır.

Amma bir daha deyirik ki, bu, əbədi də olmayacaqdır - siyasətin rəqqası bir tərəfə hərəkət etdiyi kimi, o biri tərəfə də yönələ bilir.

Üstəlik, Ermənsitan iqtisadiyyatının problemi həm də resurslar problemidir və əhəmiyyətli dərəcədə Ermənistanın regionda apardığı siyasətdən asılı bir məsələdir. Paşinyan bu siyasəti dəyişməzsə, çox çətin olacaq, bunun dəyişməsininsə bir yolu da İrəvanın Azərbaycana və həm də Türkiyəyə qarşı indiyədək apardığı siyasətin dəyişməsidir.

Amma o, bunu edə biləcəkmi? Bunu istəyəcəkmi və yaxud bacaracaqmı? Qəti söz demək olduqca çətindir. Etməsə, Ermənistanın ilk "məxməri inqilabı" elə məxməri çiçəklər kimi tez bir zamanda solacaq və hətta ola bilsin, rəngini dəyişərək yaddaşlarda epizod kimi qalacaq və biz daha bir uğursuz "rəngli inqilab"ın şahidləri olacağıq.

Bilirsiniz, çoxu düşünür ki, siyasətçinin gücü və fəndgirliyi yalnız cəmiyyətin eşitmək istədiklərini səsləndirməkdədir. Amma belə deyil. Güclü siyasət adamı həm də kəsdir ki, axına qarşı da gedə, cəmiyyətin rəyini dəyişə də bilir. Əks təqdirdə siyasət yalnız populistlərin meydanı olardı...

YENİ MÜSAVAT
N 100 (6989) 8 may 2018

# "Bir çox nazirlik və digər qurumlarda ciddi kadr çətinlikləri var"

## Qubad İbadoğlu: "Siyasi olmayan, sahəvi bacarıqlar tələb edən kadrlara toxunulmamalıdır"

**Yeni təyin olunan nazir və sədrlər kadr dəyişikliklərinə başlayıblar. Kənd Təsərrüfatı Nazirliyində, Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində, Dövlət Gömrük Komitəsində, Dövlət Miqrasiya Xidmətində xeyli sayda yüksək vəzifəli şəxs yeniləri ilə əvəz olunub.**

Məsələn, Dövlət Miqrasiya Xidmətinin (DMX) yeni rəisi Vüsal Hüseynov miqrasiya nəzarəti baş idarəsinin rəis müavini Rövşən Səfərov, qanunsuz miqrasiya hallarının aradan qaldırılması idarəsinin rəisi Qüdrət Məmmədov, miqrasiya proseslərinin analizi idarəsinin rəisi Mehman Səfərov, daxili təhlükəsizlik idarəsinin rəisi və rəis müavini, qanunsuz miqrantların saxlanması mərkəzinin rəisini vəzifələrindən azad edib.

Dövlət Gömrük Komitəsinin yeni sədri Səfər Mehdiyev də qurumda ciddi kadr islahatlarının aparılacağını deyib, ardınca yüksək rütbəli iki gömrük işçisini sərəncama göndərib.

Digər qurumlarda da kadr dəyişiklikləri prosesi getməkdədir. Bu prosesi qiymətləndirən bir çox müşahidəçilər kadr dəyişikliklərinin islahatlarda ciddi önəmli rol oynamadığını iddia edirlər. Bildirilir ki, bir sıra qurumlarda kadr dəyişiklikləri bundan əvvəl də baş verməsinə rəğmən, iş prinsiplərində dəyişiklik qeydə alınmayıb. Misal olaraq, sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun yeni təyin olunan zaman bir sıra rayon rəislərini kollegiya iclaslarında, hamının gözləri qarşısında işdən azad etdiyini, lakin bunun yerli qurumların fəaliyyətində dönüşə səbəb olmadığını qeyd edirlər...



**Kadr dəyişikliyi islahatlarda hansı rol oynayır? Dəyişikliklər müxtəlif qurumların fəaliyyətində nə zaman dönüş yaradır? Suallara cavab verən iqtisadçı-alim, ADR Hərəkatının rəhbəri Qubad İbadoğluna görə, istənilən kadrın peşəkar, eyni zamanda institutsional yaddaşa sahib olması çox vacibdir:** "Onların tez-tez dəyişilməsi o qədər də effektiv sayılmır. Bir sıra ölkələrdə, o cümlədən Gürcüstanda, Moldovada, Qırğızıstanda, Pribaltika ölkələrində hər bir nazirlikdə bir dövlət katibi vəzifəsi yaradılıb. Dövlət katibi vəzifəsinə təyinat uzunmüddətli xarakter daşıyır - 7, 9, 10 illiyə. Bəzi ölkələrdə bu vəzifə seçkili olur. Həmin müddətdə nazirlər dəyişsə də, həmin vəzifəni tutan şəxslərə toxunulmur. Ölkələr buna tez-tez kadr dəyişikliyinin fəsadlarını aradan qaldırmaq üçün gedirlər. Dövlət katibi postunu tutan şəxs institutsional yaddaşa malik olur, işin ardıcıllığını təmin etmək üçün belə kadrların hər bir nazirlikdə olması çox vacibdir. Azərbaycanda əslində bu işi aparat rəhbəri görməlidir, lakin hər yeni gələn mütləq və ilk növbədə aparat rəhbərini dəyişir. Bu baxımdan, düşünürəm ki, kadr dəyişiklikləri bəzi yerlərdə qaçınılmazdır. Lakin Azərbaycanda da dövlət katibi praktikasından istifadə olunmasına ehtiyac var".

**Ekspert deyir ki, Azərbaycanda bir çox nazirlik və digər qurumlarda ciddi kadr çətinlikləri var:** "Daha sivil düşüncəli, innovativ fikirli, daha gənc kadrların prosesə cəlb olunması nöqteyi-nəzərindən son dəyişiklikləri normal qəbul etmək olar. Lakin nəzərə almaq lazımdır ki, bir yerdən peşəkar kadrları başqa yerə təyin edərkən, həmin yerdə kadr çatışmazlığı yarana, işin keyfiyyəti aşağı düşə bilər. Məsələn, son zamanlar «ASAN Xidmət»dən bir çox bacarıqlı kadrlar Kənd Təsərrüfatı Nazirliyinə aparılıb. Bu isə «ASAN Xidmət»in işində problemlərə səbəb ola bilər. Elə siyasi vəzifələr var ki, onların dəyişməsi zəruridir. Lakin siyasi olmayan, sahəvi bacarıqlar tələb edən kadrlara toxunulmamalıdır".

**Maraqlıdır ki, Azərbaycanda kadr dəyişiklikləri ilk olaraq əvvəlki rəhbərlərin yaxın adamlarından, qohumlarından başlanır. Q.İbadoğlunun sözlərinə görə, kiminləsə qohumluğa, dostluğa görə vəzifəyə təyinat, həmçinin vəzifədən çıxarılma normal hal deyil:** "Nə təyinatlarda, nə də islahatlarda kadrlara şəxsi sədaqət prinsipindən yanaşılması doğru sayıla bilməz. Kadrlara ilk növbədə peşəkarlıq və bacarıqları baxımından yanaşmaq lazımdır. Əks təqdirdə, iş prosesində istənilən keyfiyyətə nail olmaq mümkün deyil".

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Qaradağda toz basan günəş panelləri...

## 2016-cı ildə istifadəyə veriləcəyi deyilən Səngəçal GES-in tikintisinə hələ başlanmayıb

**İnkişaf etmiş dünya ölkələri böyük sürətlə alternativ enerji istehsalını genişləndirirlər. Bu sahədə Avropa Birliyi ölkələri və ABŞ daha böyük nailiyyətlər əldə edirlər. Belə ki, son 2 ildə bu ölkələr alternativ mənbələrdən əldə olunan enerjinin maya dəyərini ənənəvi mənbələrdən əldə olunanla bərabərləşdirməyə çox yaxınlaşıblar.**

Hesablamalara görə, dünyaya günəşdən 150 milyon km qət edərək gələn gündəlik enerji, dünyada ildə istifadə edilən enerjidən təxminən 1,5 dəfə çoxdur. Nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən aparılmış təhlillərə və proqnozlara əsasən 2020-ci ilin sonuna qədər dünyada günəş enerjisi gücünün 500 GVt-a qədər artacaq. Avropa Birliyi Parlamenti tərəfindən hazırlanan "Günəş Enerjisi İstehsal Hesabatında" 2020-ci ildə günəş enerjisi istehsal olunan elektrik enerjisinin dünyada 1 milyard insana çatacağı, 2,2 milyon insanın bu sahədə işlə təmin ediləcəyi bildirilir.

Hazırda Azərbaycanda elektrik enerjisinin təxminən 8 faizi alternativ enerji mənbələri tərəfindən ödənilir. Günəş və külək enerjisi sayəsində bu rəqəmin 2020-ci ilə qədər 20 faizə qədər artırılması nəzərdə tutulur.

Azərbaycan prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi"nin Tədbirlər Planında 2020-ci ilədək alternativ və bərpa olunan enerji mənbələri hesabına 420 MVt yeni generasiya güclərinin yaradılması gözlənilir. Bu prioritet üzrə yeni elektrik stansiyalarının (külək, günəş enerjisi və bioenerji) tikintisinə təqribən 1 milyard 40 milyon manat həcmində investisiya tələb olunduğu proqnozlaşdırılır. Bu hədəfə çatılacağı təqdirdə, ildə 1,6 milyard kVtX/saata yaxın elektrik enerjisinin istehsalına və 390.0 milyon kubmetr təbii qaza qənaət olunmasına imkan yaranacaq. Yol Xəritəsində 2020-ci ilə qədər külək enerjisi üzrə 350 MVt, günəş enerjisi üzrə 50 MVt və bioenerji üzrə 20 MVt olmaqla yeni enerji güclərinin istifadəyə verilməsi planlaşdırılır.

2015-ci ildə ölkədə günəş elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin miqdarı 4,57 milyon kVt /saat, 2016-cı ildə 35,2 milyon kVt /saat olub. Hazırda Qobustan və Samuxda, həmçinin Pirallahı və Suraxanı qəsəbələrində günəş elektrik stansiyaları fəaliyyət göstərir.

Bu günlərdə sosial şəbəkələrdə yayılan məlumatda Səngəçal qəsəbəsində quraşdırıldığı deyilən günəş panellərinin istifadəsiz qaldığı və üzərini toz basdığı qeyd olunub. Eyni zamanda bildirilir ki, stansiyanın quraşdırılmasına 450 milyon manat vəsait sərf olunub.



Qeyd edək ki, rəsmi dövlət mətbuatının 2015-ci ildə yaydığı məlumatda Səngəçal Günəş Elektrik Stansiyasının layihə gücünün 9 MVt olduğu qeyd edilir. Bildirilir ki, Qaradağ rayonunun Səngəçal qəsəbəsinin yaxınlığında quraşdırılan stansiyanın tikintisinə 2014-cü ildə başlanılıb: **"Stansiyada ən son texnologiyalarla hazırlanan 36 minə yaxın günəş panelinin quraşdırılması və etibarlı elektrik ötürmə sisteminin yaradılması nəzərdə tutulur. "Qaradağ-Səngəçal" günəş elektrik stansiyası (GES) layihəsi 2016-cı ildə yekunlaşdırılacaq".**

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinə istinadla yayılan məlumatda stansiyanı bu quruma məxsus "Azalternativenerji" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) quraşdırdığı qeyd olunur.

Maraqlıdır ki, məsələ ilə bağlı "Yeni Müsavat"ın suallarına agentlikdən verilən cavabda qeyd olunur ki, Səngəçalda günəş elektrik stansiyasının tikintisinə hələ başlanmayıb(?!): **"Səngəçal Günəş Elektrik Stansiyası layihəsinin qoyuluş gücü 9 MVt təşkil edir və stansiyanın layihə-smeta sənədləri hazırlanmışdır. İlkin hesablatlar göstərir ki, layihənin həyata keçirilməsi üçün təqribən 18-20 milyon manat həcmində maliyyə vəsaiti tələb olunur və hal-hazırda dövlət-özəl tərəfdaşlığı prinsipi çərçivəsində investorların layihəyə cəlb olunması istiqamətində işlər aparılır".**

Onu da qeyd edək ki, hazırda Qaradağ rayonu ərazisində daha bir günəş elektrik stansiyası qurulur. Agentlikdən verilən məlumata görə, rayonun Sahil qəsəbəsində quraşdırılan, ümumi qoyuluş gücü 2,8 MVt olan stansiyanın birinci mərhələ üzrə 1,9 MVt-lıq hissəsi quraşdırılıb və 1,5 MVt-lıq hissəsi şəbəkəyə qoşularaq sınaq rejimində işə salınıb: **"Yeni layihə çərçivəsində quraşdırılmış günəş panellərinin bir hissəsinin şəbəkəyə qoşulması istiqamətində işlər davam etdirildiyinə görə günəş panellərinin birləşmə kabelləri şəbəkəyə qoşulmamışdır.**

**Hazırda stansiyada nəzərdə tutulan işlərin tamamlanması istiqamətində və açılış üçün hazırlıq işləri görülür və ən qısa zamanda istifadəyə verilməsi planlaşdırılır.**

**Panellərin üzərində toz örtüyünün olması ilə bağlı qeyd edirik ki, dünyanın bir çox ölkəsində günəş elektrik stansiyalarının yararsız torpaq sahələrində və yol qovşaqlarında quraşdırılması təcrübəsi geniş yayılıb. Ölkəmizdə də münbit torpaqların istifadəsində israfçılığa yol verilməməsi məqsədilə günəş elektrik stansiyalarının erroziyaya məruz qalmış torpaq sahələrində quraşdırılması daha məqsədəuyğun hesab edilir. Abşeron yarımadasında, o cümlədən Qaradağ rayonunda daha çox erroziyaya məruz qalmış torpaqların mövcudluğu və küləkli ərazi olması panellərin atmosfer təsirlərinə və tozlanmaya məruz qalması labüd edir. Eyni zamanda pilot layihə olaraq stansiyanın həmin ərazidə quraşdırılması intensiv çirklənən ərazilərdə günəş elektrik stansiyalarının effektivliyinin müəyyən olunması məqsədi daşıyır. Sınaq rejimində işləyən stansiyanın fəaliyyəti dövründə aparılan araşdırmalara əsasən tozlanmanın stansiyanın enerji effektivliyinə təsirləri təqribən 5 faiz qiymətləndirilmişdir.**

**Texniki reqlamentə uyğun olaraq stansiya istifadəyə verildikdən sonra günəş panellərinin mütəmadi yuyulması təmin ediləcəkdir.**

**Məlumat üçün bildiririk ki, bu layihənin həyata keçirilməsində məqsəd ərazinin təbii potensialından istifadə etməklə bərpa olunan və ekoloji cəhətdən təmiz enerji vasitəsi ilə ərazidən keçən yol infrastrukturunun və yaxın ərazilərdə yerləşən obyektlərin elektrik enerjisi ilə təmin olunmasıdır".**

Maraqlıdır ki, Dövlət Agentliyindən Sahil GES-in neçəyə başa gələcəyinə dair suallarımıza heç bir cavab verilmədi.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# İşğalçı üçün kritik gün

## Elçin Mirzəbəyli: ""Qarabağ klanı" hakimiyyəti dövründə yaratdığı problemlərin bütün məsuliyyətini Paşinyanın üzərinə yükləyəcək"



**Mayın 8-də Ermənistan parlamenti ölkənin yeni baş nazirini seçəcək. Hər halda, 1 may iclasında nəticə əldə edə bilməyən müxalifət lideri Nikol Paşinyan bugünkü toplantıda kifayət qədər səs toplayacağını və bir aya yaxındır iflic vəziyyətində olan Ermənistan hökumətinin başına keçəcəyini zənn edir.**

Mayın 7-də Ermənistanın hakim Respublikaçılar Partiyası (RP) Paşinyanın baş nazir seçiləcəyi halda, müxalifətə keçməyə hazır olduğunu bəyan edib. "Yeni Müsavat" erməni mediasına istinadən xəbər verir ki, bununla bağlı RP-nin parlamentdəki fraksiya rəhbəri Vaqram Baqdasaryan açıqlamasında bildirib. Baqdasaryan parlamentdə çoxluq təşkil etmələrinə baxmayaraq, "dövlətə və xalqa tabe olacaqlarını" da bildirib, bununla da RP-nin öz taleyi ilə barışdığına eyham vurub.

Amma bəzi müşahidəçilər hakim partiyanın oyun oynaya biləcəyini də güman edir. Fakt budur ki, RP bundan əvvəlki səsvermədə də Paşinyana səs sözü vermişdi, amma Serj Sərkisyanın partiya üzvləri ilə görüşündən sonra hakim partiya vədinə əməl etmədi. Yazı çapa hazırlanarkən Ermənistanın hakim Respublika Partiyası icraedici orqanının iclasını keçirirdi. Məlumata görə, iclası Ermənistanın keçmiş baş naziri Serj Sərkisyan aparıb. Görüşdə deputatların 8 may iclasında hakim partiyanın təmsilçilərinin Paşinyana səs verib-verməyəcəkləri məsələsi müzakirəyə çıxarılıb. S.Sərkisyanın revanşa hazırlaşdığı hiss olunur, ancaq bu halda Paşinyan və tərəfdarlarının da sonu ola bilər. Odur ki, ehtimallara görə, keçmiş prezident Paşinyanla bazarlaşmaya üstünlük verəcək ki, bir müddət sonra yenidən öz siyasi istəklərini reallaşdırsın. Əks halda, ölkədə növbədənkənar seçkilər elan olunacaq ki, bu da hakim partiyanın tarixin zibilliyinə göndərilməsi deməkdir. Bu arada məşhur erməni müğənnisi Serj Tankyanın da İrəvana gəlməsi və paytaxtdakı xalq toplantısına qatılmaq qərarını verməsi maraqlı məsələdir. Erməni diasporunun tanınmış üzvünün də 8 may seçkisindən bir gün öncə xalqla birlik nümayiş etdirməsi Paşinyanın aktivinə yazılacaq. Ermənistanda aksiyalara moratorium qoyulsa da, lokal etirazlar davam edir. Mayın 7-də Şirak Dövlət Universitetinin binası qarşısında aksiya keçirilib. Tələbələr rektor Saak Minasyanın istefasını tələb ediblər. Ölkədəki aksiyaların yenidən alovlanması isə N.Paşinyanın səs almayacağı təqdirdə baş verə bilər.

Baş nazir postuna yeganə namizəd N.Paşinyan isə Kremlə jest edib. Bildirib ki, baş nazir seçiləcəyi halda o, ilk xarici səfərini Rusiyaya edəcək. Bununla da "Yelk" fraksiyasının lideri Rusiya əleyhdarı olduğu barədə iddialara qarşılıq verməyə çalışıb. Hansı ki, aprel döyüşlərindən sonra N.Paşinyan Ermənistanın Rusiyanın asılılığından xilas olmasını israrla tələb edən fraksiyanın başında dayanırdı. Erməni mediası yazıb ki, Ermənistanın potensial baş naziri Rusiya prezidenti Vladimir Putinlə 14 mayda Soçidə, Avrasiya İqtisadi Birliyinin toplantısında görüşə bilər. Hansı ki, Paşinyan İrəvanı Avrasiya Birliyindən çıxmağa çağırırdı...

**Moskvanın Ermənistandakı prosesləri həssaslıqla izlədiyi də məlumdur. Bu mənada 8 mayda hansı qərar qəbul olunacaqsa, şübhəsiz ki, burada Kremlin mövqeyi öz sözünü deyəcək. "Kreml ictimai şəkildə Paşinyanın hakimiyyətini tanıyır, amma kulislərdə onun mövqelərini zəiflətməyə çalışır". Bunu "1in.am" saytına açıqlamasında amerikalı ekspert Pol Qobl deyib (axar.az).** "Paşinyan Moskva üçün qəbuledilməzdir, amma Moskva Ermənistanı Rusiyadan uzaqlaşdıracaq addımlar atmaq istəmir. Kreml üçün yeni hakimiyyəti devirmək birbaşa hücumdan daha effektiv olacaq. Putin, deyəsən, Ukraynadan dərs çıxarıb", - o bildirib. Kifayət qədər maraqlı mövqedir və həqiqətə daha yaxındır.

Paşinyana səs vermədiyinə görə, hətta öz üzvlərindən biri ilə yollarını ayıran Daşnaksütyun da de-fakto yeni hökumət başçısı olaraq Paşinyanı qəbul edib.

**Daşnaksütyun bəyan edib ki, yeni hökumətdə təklif ediləcək yerdən imtina etməyəcək. Daşnaksütyun fraksiyasının rəhbəri Armen Rüstəmyanın sözlərinə görə, partiya 8 maydakı seçkidə Paşinyana səs verəcək. O, növbədənkənar parlament seçkisinin Respublika Partiyasının maraqlarına uyğun olmadığını bildirib:**

"Bizim fikrimizcə, seçkidən sonra Ermənistan Konstitusiyasına dəyişikliklər olmalı, baş nazirin səlahiyyətləri məhdudlaşdırılmalıdır. Polis, Milli Təhlükəsizlik Xidmətinə nəzarət parlamentin əlində olmalıdır".

**Artıq özünü hakimiyyətin başında görən ali təhsilsiz (!) N.Paşinyan isə hələ seçilmədən kabinetini qurur.** "Mənim hökumətimdə oliqarxlar olmayacaq" - Paşinyan deyib. O bildirib ki, Ermənistanın yeni hökumətində oliqarxlar olmayacaq. **Virtualaz.org "Sputnik"ə istinadən xəbər verir ki, bunu jurnalistlərə parlamentin "Yelk" fraksiyasının rəhbəri, baş nazir postuna namizəd Nikol Paşinyan deyib. Gələcək baş nazir xalqa yönəlik növbəti mesajlarını da verib.** "Heç kim və heç kimə bu və ya digər bazara görə xərac ödəməyəcək. Bununla birgə, hazırkı iri iş adamlarına qarşı da heç bir hərəkət olmayacaq. Qanun qarşısında bərabərlik olacaq. Hüquq pozuntuları qanunla cəzalandırılmalıdır, başqa cür yox. Bu qanun qarşısında hamı bərabər olacaq", - o bildirib.

**N.Paşinyanın rəhbərliyi dövründə Ermənistanın Azərbaycan və Türkiyə ilə bağlı siyasətinin necə olacağı, Qarabağ məsələsində irəliləyişin olub-olmayacağı təbii ki, bizi daha çox maraqlandırır. Bu barədə erməni ekspertlər də danışır.** "Düşünürəm ki, Paşinyanın hakimiyyətə gələcəyi təqdirdə də türk-erməni əlaqələrində ciddi dəyişiklik olmayacaq". **Axar.az xəbər verir ki, bu sözləri erməni siyasi ekspert Vigen Akopyan müxalif hərəkatının lideri Nikol Paşinyanın baş nazir olacağı təqdirdə regionda yaranacaq geopolitik durum barədə danışarkən deyib. Onun sözlərinə görə, Türkiyə-Ermənistan əlaqələri Qarabağla birbaşa bağlıdır. Qarabağda isə irəliləyiş olmayacaq:** "Azərbaycan lideri İrəvanın onlara məxsus olduğunu deyirsə, hər hansı qarşılıqlı güzəştlər barədə danışmağın mənası yoxdur". Qeyd edək ki, az öncə V.Akopyan N.Paşinyanın Türkiyə ilə münasibətlərdə dönüş etmək niyyəti olmadığını bir daha bildirmişdi.

**Politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, Respublikaçılar Partiyasının müxalifətə keçdiyini bəyan etməsi Paşinyanın baş nazir seçiləcəyi ehtimalını daha da artırır:** "Əks təqdirdə, parlament buraxıla və Paşinyana dəstək aksiyalarını müstəvisində keçirilən növbədənkənar seçkilərdə Respublikaçılar Partiyası parlamentdəki bütün yerlərini itirə bilər. Sərkisyanın faktiki rəhbərlik etdiyi hərbi-cinayətkar xuntanın geriyə çəkilməsinin əsas səbəbi də çox güman ki, bununla bağlıdır. İndi Respublikaçılar Partiyasına da, onu himayə edən dairələrə də vaxt lazımdır. Onsuz da Paşinyanın baş nazir seçilməsi heç nəyi dəyişməyəcək. Ermənistanın problemləri o qədər çoxdur ki, onu nəinki Paşinyan kimi təcrübəsiz və təsadüfi adam, hətta oturuşmuş siyasi komanda belə həll etmək iqtidarında deyil. Paşinyan baş nazir seçiləcəyi təqdirdə seçkilər payızda keçiriləcək. Qarşılığında isə respublikaçılar vaxt qazanacaqlar. Etirazlar səngiyəcək, eyforiya keçəcək və 1-2 aydan sonra kütlə Paşinyandan gözlədiyi "möcüzələri" tələb edəcək. Möcüzə isə şübhəsiz ki, baş verməyəcək. Əvəzində isə "Qarabağ klanı" hakimiyyəti dövründə yaratdığı problemlərin bütün məsuliyyətini Nikol Paşinyanın üzərinə yükləyəcək. Bu müddət ərzində uğursuzluq zolağı daha da genişlənəcək. Çünki Qarabağ klanı uzun illər boyu ölkəyə nəzarət edib, nəhəng kapitala sahiblənib. Onlar üçün ən müxtəlif təxribatlara Paşinyan və tərəfdarlarını gözdən salmaq çətin olmayacaq".

**E.Mirzəbəylinin sözlərinə görə, bütün bunları nəzərə alsaq, mayın 8-də Ermənistan parlamentində keçiriləcək seçkilərdə sürpriz baş verəcəyini gözləməyə dəyməz:** "Kütlə nəticə gözləyir və həm də çox tez. Bu səbəbdən kütləyə qələbə eyforiyasının son ekstaz həddini yaşamağa imkan verəcəklər. Daha öncə də qeyd etdiyim kimi, qısa müddətdən sonra bu eyforiya bitəcək. Problemlər artacaq və kütlə hər zaman olduğu kimi öz qəhrəmanını "edam kötüyünə" özü yola salacaq. Qənaətimə görə, növbədənkənar seçkilərədək Ermənistanda ziddiyyətlərin dərinləşməsi üçün kifayət qədər zəmin var. Çox güman ki, mərkəzdənqaçma meylləri də güclənəcək. Hakimiyyət boşluğu dərinləşəcək. Düşünürəm ki, bu prosesi diqqətlə izləmək lazımdır. Bu müddət ərzində Ermənistanın yer aldığı ənənəvi platformalardan sıxışdırılması üçün daha çevik diplomatiya və informasiya siyasəti yürütmək lazımdır. Ermənistandakı hakimiyyət böhranının təsiri altında yaranan bütün boşluqlara əl qoymaq, işğalçı ölkənin təhlükəsizliyinə zəmanət verən bütün kənar amillər neytrallaşdırılmalıdır". **Politoloq bildirdi ki, Ermənistanın uzun illərdən bəri Azərbaycana qarşı yürütdüyü siyasətin onun özünə qarşı çevrilməsi üçün olduqca əlverişli zəmin yaranıb:** "Bu proses təxminən 5-6 ay davam edə bilər. Qarşımızda duran bu zaman kəsiyindən səmərəli istifadə etmək üçün bütün vasitələrdən istifadə etməliyik".

Məlum olduğu kimi, rəsmi Moskva Ermənistanda hakimiyyət əleyhinə keçirilən etiraz aksiyalarını ölkənin "daxili işi" kimi qiymətləndirib. Kremlin sözçüsü Dmitri Peskov və Xarici İşlər Nazirliyinin rəsmisi Mariya Zaxarova bununla bağlı bəyanatlar verib. Amma Rusiyadan İrəvana gələn emissarlar öz davranışları ilə forpost Ermənistanı özbaşına buraxmayacaqlarını nümayiş etdirdilər. Elə erməni ekspertlər də bunu təsdiqləyir.

Rusiyanın Ermənistandakı səfirliyinin bir gün əvvəl yaydığı bəyanatında da Moskvadan verilən bəyanatlar xatırlanır. Bəyanata görə, "məxməri inqilab"ın liderləri dəfələrlə bildiriblər ki, siyasi proses xarici siyasətdə dəyişiklikləri nəzərdə tutmur. Amma erməni şərhçi Sarqis Artsruni bu fikirdədir ki, Moskva əslində Ermənistanı qanda batırmaqla hədələyir (publika.az). Leontyevlə birlikdə eyni studiyada Kremlin başqa bir təbliğatçısı Mixail Yuryev var idi. O, təhqirlərlə kifayətlənmədi. Yuryev Ermənistanı müstəqil ölkə hesab etmir, üsyançı quberniya hesab edir. Hesab edir ki, Rusiya daha az inkişaf etmiş xalqları tabe etmək hüququna malikdir. Onun Ermənistanda siyasi böhranın qarşısını almaq üçün öz "resepti" var: o, İrəvana iki alay göndərməyi və "məxməri inqilab"ı qanda batırmağı təklif edir. Rusiya Ermənistan parlamentini qanda batırdı (xatırladaq ki, 1999-cu il oktyabrın 27-də Ermənistan parlamenti güllələnib, baş nazir Vazgen Sərkisyan və spiker Karen Dəmirçiyan da daxil olmaqla, 8 nəfər öldürülüb. Həmin hadisədən iki ay sonra - dekabrda, ATƏT-in İstanbul sammiti çərçivəsində Bakı və İrəvan arasında Qarabağa dair ilk anlaşma sənədinin imzalanması gözlənilirdi - red.) Həmin vaxt ölkəmizin dövlət maraqlarını anlayan hakimiyyət formalaşdırılmışdı. Rusiyanın himayəsi ilə 2018-ci il martın 1-də azadlıq üçün mübarizə aparan Ermənistan vətəndaşları güllələnmişdi", - erməni siyasi şərhçi qeyd edib.

Ermənistan parlamentinin mayın 8-dəki iclasında hansı qərarın veriləcəyini gözləyək. Bu, həmin parlamentdir ki, 1999-cu ildə orada son sözü silahlar demişdi. Hər halda, tarixin acı dərsidir, Şuşanın işğalında iştirakını hər zaman fəxrlə bəyan edən cani Serj Sərkisyanın başında dayandığı partiya məhz bu gün "taxt"dan salınacaq, özünü hansı tale gözləyir, bunu gələcək göstərəcək...

YENİ MÜSAVAT
N 100 (6989) 8 may 2018

# Dərman mafiyasına qarşı daha bir əməliyyat - həbslər...

## DTX, Baş Prokurorluq və DGK mütəşəkkil dəstəni ifşa etdi

**Dərman vasitələrinin qanunsuz dövriyyəsi ilə məşğul olan mütəşəkkil dəstə ifşa olunub.**




Baş Prokurorluq, Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Gömrük Komitəsinin mətbuat xidmətləri birgə məlumat yayıb.

Musavat.com-a daxil olan məlumatda bildirilir ki, Baş Prokurorluq, Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Gömrük Komitəsi əməkdaşlarının keçirdiyi birgə əməliyyat nəticəsində dərman vasitələrinin qanunsuz dövriyyəsi ilə məşğul olan mütəşəkkil dəstə ifşa olunub.

Görülmüş tədbirlər nəticəsində Bakı Beynəlxalq Hava Limanındakı Bakı Karqo Terminalından gömrük nəzarətindən yük maşınında çıxarılaraq dərman vasitələrinin qanunsuz dövriyyəsi ilə məşğul olan Məmmədov Anar Kamran oğluna məxsus yaşayış sahəsinə daşınan dövlət qeydiyyatından keçməmiş, ölkəyə buraxılması qanunsuz olan 53 adda ümumi dəyəri 108.819 AZN təşkil edən müxtəlif dərman vasitələri aşkar edilərək saxlanılıb.

Səhiyyə Nazirliyinin əməkdaşlarının iştirakı ilə Anar Məmmədova məxsus Yasamal rayonunda yerləşən “Zeytun” aptekinə baxış zamanı dövlət qeydiyyatından keçməmiş, mənşəyi məlum olmayan 75 adda müxtəlif dərman vasitələri aşkar edilərək götürülüb. Davam edən araşdırmalarla Yasamal rayonu ərazisindəki “İrem”, “Qlükoza”, “Avas”, “Fatimə”, Nəsimi rayonu ərazisindəki “Zeytun”, “Medical City”, “Elit”, “Vahid”, “Dokta Elite”, Nərimanov rayonu ərazisindəki “Şəfa”, “Şəfa Zeytun 426", "Təbib" apteklərinə satılmış müxtəlif sayda dövlət qeydiyyatından keçməmiş dərman vasitələri aşkar edilərək dövriyyədən çıxarılıb.

İlkin istintaqla müəyyən edilib ki, xarici ölkə vətəndaşı Ateş Atanur, Azərbaycan Respublikasının vətəndaşı Anar Məmmədov 2016-cı ildən hazıradək satış məqsədilə dərman vasitələrinin ölkəyə qanunsuz yollarla gətirilməsini müntəzəm təşkil ediblər. Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin vəzifəli şəxsləri bu dərmanların yük müşayiət sənədlərini dəyişdirərək Hava Nəqliyyatında Baş Gömrük İdarəsində Mərkəzi Gömrük Hospitalına çatması nəzərdə tutulan başqa məhsullar adı altında bəyan edilməsini, bu yolla qeyd olunan dərmanların ölkəyə qeydiyyatsız keçirilməsini təşkil etməyə görə əvvəlcədən hər yükün ümumi dəyərinin 25 %-i dəyərində haqq alıb, dərmanların ölkəyə qeydiyyatsız idxalını, gömrük nəzarətindən çıxarılaraq birbaşa dərman satışı ilə məşğul olan şəxslərə çatdırılmasını təmin ediblər.

Dövlət Təhlükəsizlik Xidmətində davam edən cinayət işi üzrə toplanmış ilkin sübutlar əsasında gömrük orqanlarında vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə qaçaqmalçılıq və külli miqdarda dərman vasitələrinin qanunsuz dövriyyəsi ilə bağlı cinayət əməllərinə görə Məmmədli Fərman Həmzə oğlu, Xıdırov Vasif Teymur oğlu, Mehtiyev Cəmil Səlim oğlu, Atanur Ateş Adem oğlu, Məmmədov Anar Kamran oğlu, həmçinin Quliyev Ələmət Nazim oğluna müvafiq olaraq Cinayət Məcəlləsinin 200-1.2.2, 200-1.2.3 (dərman vasitələrinin qanunsuz dövriyyəsi), 206.3.2, 206.3.3 (qaçaqmalçılıq) və 314.2 (səhlənkarlıq) maddələri ilə ittiham elan olunmaqla barələrində məhkəmənin qərarları ilə həbs-qətimkan tədbiri seçilib.

Dövlət Gömrük Komitəsinin rəhbərliyi tərəfindən Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi Sadiq Abduyev, Tibbi Xidmət İdarəsinin rəisi Fikrət Qədiməliyev, Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin Birinci yük şöbəsinin rəisi Araz Məmmədov və digərləri tutduqları vəzifələrdən azad edilməklə sərəncama götürülüblər.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Üç sabiq məmurun fəaliyyəti yoxlanır - ağır cəza olacaq

**Prezident seçkilərindən sonra hökumətdə baş verən dəyişikliklərin dəyişiklik olaraq qalmayacağı, bir sıra qurumlarda yol verilən qanunsuzluqlara görə ciddi cəzalanmaların olacağı barədə məlumat vermişdik.**

## Səlim Müslümovun, Heydər Əsədovun və Əli Həsənovun rəhbərlik etdikləri qurumlarda total araşdırmalar başlayıb; dövlətin milyardlarla manatını oğurlamış sabiq nazirlər təlaşda


Səlim Müslümov


Heydər Əsədov


Əli Həsənov

Gələn xəbərlər göstərir ki, bununla bağlı redaksiyamıza verilən məlumatlar həqiqəti əks etdirir. Belə ki, son günlər yayılan xəbərlərə görə, hazırda Kənd Təsərrüfatı Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, o cümlədən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində ciddi araşdırmalar aparılır. Araşdırmaların gedişində ciddi faktların aşkarlandığı, hər üç qurumun rəhbər şəxsləri arasında həbslərin olacağı qeyd edilir (modern.az).

Onu da qeyd edək ki, seçkilərdən sonra rəhbərləri dəyişən 2 qurumda - Dövlət Miqrasiya Xidməti və Diasporla İş üzrə Dövlət Komitəsində yol verilən qanunsuzluqlar barədə birbaşa Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev məlumat verib. O, yeni rəhbərlərin kollektivə təqdimatı zamanı çıxışında Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyətində ciddi qüsurların olduğunu, ayrılan vəsaitlərin təyinatından yayındırıldığını qeyd edib. Bundan əlavə, miqrasiya orqanlarında da korrupsiyanın olduğunu bildirib.

Kənd Təsərrüfatı Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Qaçqın və Məcburi Köçkünlərlə iş üzrə Dövlət Komitəsindəki problemlər barədə rəsmi açıqlamalar olmasa da, yoxlamaların başladılması xəbərlərinin yayılması, bir sıra istiqamətlərdə artıq üzə çıxarılan faktların ictimailəşdirilməsi bu qurumlarla bağlı daha ciddi ölçülərin götürüləcəyindən xəbər verir.

Onu da qeyd edək ki, bir neçə gün öncə mötəbər mənbələrdən aldığımız məlumat əsasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondundan 2-2,5 milyard manatın yoxa çıxması barədə material dərc etmişik. Həmin məlumatda fondda uzun illərdən bəri işləyən və vəsaitlərin uçotdan yayınmasını təmin edən mexanizmin üstünün açıldığı qeyd olunur. Hansı ki, həmin mexanizm sayəsində uzun illər boyu milyardlarla manat vəsaitin büdcəyə ödənişinin qarşısı alınıb. Fond rəhbərliyinin bu mexanizmdən xəbərsiz qalması qeyri-mümkün olduğuna görə böyük ehtimalla, quruma uzun illər rəhbərlik etmiş, sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov da araşdırmalara cəlb olunacaq.

Bundan əlavə, uzun illər boyudur Azərbaycanda əlillik təyinatı, ünvanlı sosial yardıma çıxışla bağlı çox ciddi problemlər davam edir. Bu iki sahədə korrupsiya imkanları nəinki aradan qaldırılmır, əksinə, rüşvətin məbləği ildən-ilə artır. Təsadüfi deyil ki, yeni gələn nazirin qurumun rəhbər heyəti ilə keçirdiyi ilk görüşləri məhz bu iki sahəyə həsr olunmuşdu. Nazir Sahil Babayev hər iki sahədə şəffaflığın təmin olunacağını vurğulamaqla, əslində bunun indiyədək olmadığını söyləmiş oldu. Bu baxımdan, yoxlamaların bir istiqamətinin də əlilliyin və ünvanlı sosial yardımın təyinatı sistemini əhatə edəcəyi şübhə doğurmur.

Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi də fəaliyyəti cəmiyyətdə ən çox narazılıq doğuran qurumlardan biridir. Qarabağ müharibəsində atəşkəs elan olunandan bəri keçən 24 ilin 20-də bu quruma Əli Həsənov rəhbərlik edib. Onun özünün verdiyi statistikaya inansaq, bu illər ərzində bütün mənbələr hesabına Azərbaycanda qaçqın və məcburi köçkünlərə 6 milyard manatdan yuxarı vəsait sərf olunub. Bu vəsaitin böyük bir hissəsini Dövlət Neft Fondundan qaçqın və məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması üçün ayrılan pullar təşkil edir. Hansı ki, uzun illərdir bu sahədə ciddi mənimsəmələrin olduğu, qiymətlərin şişirdildiyinə dair müxtəlif araşdırmalar açıqlanır, faktlar ortaya qoyulur. Həmin faktlar bu istiqamətə ayrılan pulların xeyli hissəsinin mənimsənildiyindən xəbər verir. Qaçqınlara ayrılan yardımlardan, yemək və kommunal xərclərdən mənimsənilən yüz milyonlarla manatı da nəzərə alsaq, başladılan yoxlamaların heç də nəticəsiz qalmayacağını söyləyə bilərik.

Kənd Təsərrüfatı Nazirliyinə gəlincə, son illərdə büdcədən ən çox vəsait alan qurumlardan biri də məhz bu nazirlikdir. Kənd təsərrüfatının prioritet elan olunduğu, aqrar istehsalçılara ildə yüz milyonlarla manat subsidiyanın ayrıldığı bir dövrdə quruma rəhbərlik edən Heydər Əsədov oradakı mənimsəmə mexanizmlərindən əvvəlcədən məlumatlı idi. Belə ki, Hesablama Palatasının sədri olanda H.Əsədov Kənd Təsərrüfatı Nazirliyinin özünü, “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti, Dövlət Baytarlıq Nəzarəti Xidməti, Fitosanitar Nəzarəti Xidməti kimi qurumlarını yoxlamışdı. Bu yoxlamalar zamanı aşkarlanan korrupsiya mexanizmləri H.Əsədova yaxşı tanış idi. Buna görə də nazir olan kimi adları çəkilən qurumların rəhbərlərini, hətta regional və rayon şöbələrinin rəislərini də dəyişib öz komandasını formalaşdırdı. Nəticədə, komanda dəyişsə də, mənimsəmə mexanizmi olduğu kimi qaldı. Sahəyə yönəldilən vəsaitlərin həcmini təsəvvür etmək üçün qeyd edək ki, yalnız “Aqrolizinq” ASC-nin ötən ilki büdcəsi 350 milyon manata yaxın olub. Digər qurumların büdcələrini, üstəlik, aqrar istehsalçılara ayrılan subsidiyaları da əlavə etdikdə illik 1 milyard manata yaxın vəsait alınır. Bu vəsaitlərin isə xeyli hissəsi təyinat nöqtəsinə çatmır...

Yoxlamaların nəticəsi olaraq Səlim Müslümovla Heydər Əsədovun ciddi cəzalandırılacağı tamamilə mümkün görünür. Üstəlik, onları müdafiə edən “zireh” - vəzifə əllərindən alınıb.

Əli Həsənova gəlincə... Onun vaxtilə rəhbərlik etdiyi Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi indiyədək ən çox korrupsiyaya bulaşmış qrumlardan biri kimi təqdim edilir. Onun hazırda baş nazirin müavini postunda qalması cənab Həsənovu ciddi cəzalanmadan sığortalayır. Amma araşdırmalar nəticəsində ortaya ciddi yeyinti faktları çıxarsa (bəlkə də artıq çıxıb-red.), Ə.Həsənovun qeyri-rəsmi formada cəzalandırılacağı, daha doğrusu, dövlətdən oğurladıqlarının əlindən alınacağı istisna edilmir.

❑ **TURQUT, “Yeni Müsavat”**

# Telekanallara çıxan yalançı həkimlərə görə jurnalistlər nə etsin?

## "Space"nin icraçı direktoru Kamil Şahverdi: "Ya gərək Səhiyyə Nazirliyi bizə siyahı versin, ya da... "

## Ələsgər Məmmədli: "Milli Teleradio Şurası bununla bağlı monitorinq aparmalıdır"

**Xəbər verdiyimiz kimi, ötən həftə Baş Prokurorluq dərman mafiyası qurmuş şəxslərin həbsi ilə bağlı məlumat yaymışdı. Xəbərdə bildirilirdi ki, mafiya rəhbərləri ölkədə 100-ə yaxın həkimlə əlbir olublar və onları da insanların sağlamlığını təhlükəyə atan bu prosesə cəlb ediblər.**

Saxta, qanunsuz, lazımsız və bahalı dərmanların xəstə insanlara satılmasına kömək edən, bu yolla böyük məbləğdə pul qazanan həkimlərin arasında tanınmış ginekoloq Natiq Məhərrəmov da var. O, həbs edilən cinayətkarlarla əlbir olub, onlardan mütəmadi olaraq pul alaraq şirkətin dərmanlarını satdırıb. Onların sonuncu dəfə 1000 manatlıq ödəniş prosesi gizli kamera ilə çəkilib.

Natiq Məhərrəmovun bu qədər məşhur olmasının səbəbi isə ATV telekanalında yayımlanan, aparıcısı Zaur Baxşəliyevin olduğu "BizimləSən" verilişidir.

Belə ki, ginekoloq Natiq Məhərrəmov bəhs etdiyimiz verilişdə tez-tez reklam edilir, mükəmməl, peşəkar, xeyirxah, xəstələrini düşünən biri kimi göstərilir. Bu yolla da verilişi izləyən minlərlə insan həkimin tələsinə düşüb, onun qəbuluna yollanıblar.

Amma telekanallara çıxıb populyarlaşan həkimlər mövzusu bununla yekunlaşmır. Bu günlərdə "Səni axtarıram" verilişində iştirak etmiş Mərkəzi Neftçilər Xəstəxanasının Cərrahiyyə və Orqan Transplantasiyası şöbəsinin müdiri Dr. Mircəlal Kazıminin də yanlış diaqnozu ilə yeniyetmənin həyatını təhlükəyə atması xəbərləri yayıldı.

O, bir müddət öncə yardıma ehtiyacı olan Göytəpə şəhərə sakini 17 yaşlı Nərmin Xudiyevanı müayinə edib. Həkim müayinədən sonra xəstəyə qaraciyər sirrozu diaqnozu qoyub. Bununla yanaşı, Xudiyevanın ailəsindən 10 min manata yaxın pul alıb. Xəstənin həyatının xilası üçün əməliyyatın vacib olduğunu söyləyib. Əməliyyatın gerçəkləşməsi üçün isə ailədən 40 min manat pul istəyib.

Eyni zamanda həkim Nərminin özündəngetmə hallarının artmasından sonra isə xəstəxanaya yatırılması üçün 2500 manat depozitin qoyulmasını bildirib. Lakin xeyirxah insanların köməkliyi və araşdırmasından sonra məlum olub ki, diaqnoz yanlış qoyulub. Sən demə, N.Xudiyeva əslində qaraciyər sirrozundan deyil, Vilson xəstəliyindən əziyyət çəkirmiş. Onun sağalması üçün əməliyyata heç bir ehtiyac yoxdur.

Qeyd edək ki, bu ilin yanvar ayında Gürcüstan Baş Prokurorluğu Mircəlal Kazımi barədə məlumat yayıb. Məlumatda həkimin pasientlərini böyük həcmdə pul vəsaitinin mənimsənilməsi cəhdi ilə bağlı başlanmış cinayət işi üzrə ittiham olunduğu deyilib.

Bir həftə ərzində iki belə faktın üzə çıxması təbii ki, təsadüfi deyil. İnsanlar sözügedən verilişlərə baxır, həmin həkimlərin qəbuluna yazılır və həyatlarını onlara əmanət edirlər. Başlarına gələn hansısa halda isə birbaşa telekanalı suçlayırlar. Çünki kanalın onların etibarından sui-istifadə etdiyini düşünürlər. Bu, əslində çap mediası üçün də keçərlidir. Zaman-zaman ekspert rəyi aldığımız həkimlərin fəaliyyətinə nə dərəcədə zamin dayana bilirik? Ümumiyyətlə, zamin dayanmalıyıqmı?





**"Yeni Müsavat" bu mövzu ilə bağlı ötən həftə canlı yayımda müzakirə də açmışdı. Media eksperti Ələsgər Məmmədli həmin müzakirədə bildirmişdi ki, ümumiyyətlə, Z.Baxşəliyevin verilişindəki həkimin adının xüsusi hallandırılması da araşdırılmalıdır. Onun bildirdiyinə görə, prokurorluğun açıqlaması ittihamdır. Qanun isə tələb edir ki, məhkəmə qərarı olmadan kimisə mafiya, banda adlandırmaq olmaz:** "Bunun bu formada mediada yayılması ciddi pozuntudur. Bu adamların heç biri məhkəmə qərarı ilə suçlu deyil. Bir insan haqda ehtimal olunan suç ola bilər. Mediada bu formada təkrarlamaq etik deyil, suça ortaq olmaqdır. Bəli, orada 100 həkim var. Hansı ittihamda qeyri-müəyyən rəqəm olar? Bu, biriləri üçün uyğun pozisiya yaradır. 2011-ci ildən bu araşdırma davam edir. O zaman lisenziya verən, nəzarət edən qurum hara baxırdı?"

**Ə.Məmmədli medianın bu məsələdə bir platforma olduğunu və dərmanlar haqda məlumatın alınması, yayılması üçün münbit məkan olduğunu dedi:** "Qanunvericilik bu dərmanların peşəkarlar arasında tanıdılmasını qadağan edə bilməz. Müəyyən zamandan sonra bunun geniş kütləyə yayılmasını tələb edirsə, bunun elmi dərgilərdə yayılmasını da mütləq edir. O ki qaldı, konkret həkimlə bağlı yayılan ittihama, burada mütləq qarşı tərəf, yəni zərərçəkən olmalıdır. Çünki bu qanun vətəndaşların sağlamlığının daha yaxşı qorunması üçün nəzərdə tutulub. Amma media etikasını da bu məqamda unutmamalıyıq. Bu gün bizim radiolarda ən çox qarşımıza çıxan da budur. Bir saatda ancaq 9 dəqiqə reklama ayrıla bilər. Teleticarət və qurumun öz reklamları da efirə girirsə, reklamın müddəti bir saat ərzində 12 dəqiqəyə çıxır. Bəzən sponsor verilişlər də olur ki, burada qanun fərqlidir. Sponsor öndə, ortada və sonda elan olunmalıdır. Amma verilişin mahiyyətinə ayrılaraq, aparıcı səsləndirə bilər. Verilişdən ayrı elan etməlidir ki, sponsor filan şirkətdir. Amma bizdə bütün veriliş o sponsorun üzərində qurulur. Dərman reklamıdırsa, bütün veriliş ona həsr olunur. Ya da maşın yağdırsa, elə absurd şəkildə təqdim edilir ki, sanki bunlar olmasa maşın hərəkət etməz. Həmin dərman olmasa, insan yaşaya bilməz. Bu isə yanıldıcı xarakter daşıyır".

Media ekspertinin dediyinə görə, bunun günahı ilk növbədə buna nəzarət edən Milli Teleradio Şurasındadır. Ə.Məmmədli dedi ki, MTRŞ 24 saat ərzində kanalda monitorinq apardığı üçün dərhal müdaxilə etmək səlahiyyətinə malikdir. Amerikada ancaq tamaşaçı şikayət edəndə qurum müdaxilə etdiyi halda, bizdə MTRŞ-nin avtomatik belə bir hüququ var.

**"Space" kanalının icraçı direktoru Kamil Şahverdi isə "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu məsələdə telekanalların durumu o qədər də ürəkaçan deyil. Onun sözlərinə görə, həkimin öncədən nə işlə məşğul olması, öz işində hansı peşəkarlıqda olmasını bilmək mümkün deyil. Hər eksperti efirə çıxarmadan öncə Səhiyyə Nazirliyinə müraciət etmənin də qeyri-mümkünlüyünü dilə gətirən icraçı direktora görə, bu halda telekanal da pis durumda qalır:** "Amma bununla yanaşı, telekanal efirə çıxardığı hansısa həkimin fəaliyyətindəki neqativ hallara görə məsuliyyət daşımır".

**Müsahibimiz dedi ki, "Space" kanalında ekspert həkimlərin iştirakı ilə hər hansı verilişlər yayımlanmır. Daha öncə Səhiyyə Nazirliyi ilə ortaq sağlamlıq proqramlarının olduğunu deyən K.Şahverdiyev bu baxımdan özlərini sığortaladıqlarını vurğuladı:** "Amma yenə də bu, çox çətin məsələdir. Adı çıxan, tanınmış həkimlər var ki, insanlar onun qəbulunda gözləyir. Bunu da ekspert kimi cəlb edib, efirə çıxarırsan. Sonra başqa məsələ çıxanda qalırsan belə. Ya gərək Səhiyyə Nazirliyi telekanallara etibarlı həkimlərlə bağlı siyahı versin ki, yalnız bunları efirə çıxarmaq olar. Ya da başqa bir formasını tapmaq lazımdır. Çünki Səhiyyə Nazirliyi də həkimlərin gələcəkdəki bütün fəaliyyətinə zəmanət verə bilmir".

❑ **Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**

# Dəfni günü Fuad Poladovu yad edən aktyor cəzalandırılıbmı...

## "Azdrama"dan iddialara cavab verildi: "Teatrın kollektivi onun xatirəsini hörmət və ehtiram hissi ilə anır və bu, hər zaman belə də olacaq"



**Mayın 5-də, aktyor Fuad Poladovun dəfn günündə "Şah Qacar" tamaşasından sonra Akademik Milli Dram Teatrında qalmaqal yaşanıb. Teatrdan adının açıqlanmasını istəməyən şəxsin kulis.az saytına verdiyi məlumata görə, gərginlik tamaşadan sonra təzimə çıxan aktyorlardan birinin Fuad Poladovu xatırlaması və onun xatirəsinə tamaşaçılardan bir dəqiqəlik sükut xahiş etməsindən sonra yaşanıb.**

Belə ki, teatr rəhbərliyi aktyoru çağıraraq, ona xüsusi xəbərdarlıq edib.

Qeyd edək ki, "Şah Qacar" mərhum aktyor Fuad Poladovun baş qəhrəmanı oynadığı tamaşalardan biridir. İndi Qacar rolunda Akademik Milli Dram Teatrının aktyoru Abbas Qəhrəmanov çıxış edir.

**Məsələ ilə bağlı "Yeni Müsavat"ın əməkdaşı adıçəkilən teatrla əlaqə saxlayıb. Teatrın mətbuat katibi Cavid Zeynallı olaya bu cür şərh bildirib:** "Mayın 5-də - xalq artisti Fuad Poladovun dəfn günündə Akademik Milli Dram Teatrında "Şah Qacar" tamaşası nümayiş olundu. Bilirsiniz ki, bu tamaşanı və Fuad Poladovun böyük məharətlə yaratdığı Qacar rolunu istər teatr ictimaiyyəti, istərsə də sıravi tamaşaçılar yüksək qiymətləndiriblər. Fuad müəllimdən sonra bu rol əməkdar artist Abbas Qəhrəmanova həvalə olundu və tamaşa bu gün də teatrın repertuarında özünəməxsus yer tutur, uğurla nümayiş olunur. Sözügedən tamaşanın nümayişi zamanı səhnə əsərində rol alan aktyorlar Fuad Poladovun əziz xatirəsini ehtiramla yad etdi, tamaşaçılarla bir yerdə onun xatirəsi bir dəqiqəlik sükutla anıldı. Bununla bağlı teatrda hər hansı problemin yaranması haqqında yayılan xəbərlər tam əsassızdır və bunu teatrın yaradıcı işinə qarşı müdaxilə kimi qəbul edirik. Fuad Poladov görkəmli aktyor kimi Akademik Milli Dram Teatrının səhnəsində bir-birindən gözəl rollar yaradıb. Teatrın kollektivi onun xatirəsini hörmət və ehtiram hissi ilə anır və bu, hər zaman belə də olacaq".

**"Fuad Poladov üçün uzun illər çalışdığı Akademik Milli Dram Teatrında niyə vida mərasimi keçirilmədi?" sualımızı isə teatr rəsmisi bu cür cavablandırdı:**

"Öz vəsiyyəti belə idi ki, vida mərasimi evində keçsin".

Xatırladaq ki, Azərbaycanın əfsanəvi kino və teatr aktyoru Fuad Poladov uzun sürən ağır xəstəlikdən sonra mayın 5-də dünyasını dəyişib. Aktyor vəsiyyətinə əsasən Yasamal rayonundakı "Qurd qapısı" qəbiristanlığında torpağa tapşırılıb.

❑ **Xalidə GƏRAY,**
**Musavat.com**

YENİ MÜSAVAT
N 100 (6989) 8 may 2018

**Türkiyədə saxlanılaraq Azərbaycana ekstradisiya edilən "Quska" ləqəbli, biznesmen, sabiq deputat Hüseyn Abdullayevin istintaqı ilə bağlı onun vəkilləri susur. Sabiq deputatın işindəki son durumla bağlı onun vəkili, eləcə də ona yaxın şəxslərdən məlumat öyrənmək mümkün deyil. Sanki "Quska" tərəfindən bu şəxslərə danışmamaq üçün embarqo qoyulub.**

# Hüseyn Abdullayev siyasi məhbus elan oluna bilərmi...

## Mirvari Qəhrəmanlı: "Ona siyasi məhbus deməyə heç bir əsas yoxdur"



Bu da bəzi iddialara yol açıb. Belə iddia olunur ki, 11 il öncə olduğu kimi, H.Abdullayev yenə də "bağışlanması" üçün hərəkətə keçib. Onun anasının bu istiqamətdə addımlar atdığı iddia olunur. "Sonuncu ölən ümidlərdir" düşüncəsi ilə "Quska"nın azadlığa çıxmaq üçün bütün yollara baş vurduğu iddia olunur.

Hazırda 1 saylı Bakı İstintaq Təcridxanasında saxlanılan sabiq deputat ətrafındakı söz-söhbətlər təkcə bunlarla bitmir. Ölkə daxilində fəaliyyət göstərən bəzi hüquq-müdafiə təşkilatlarının, eləcə də hüquqla əlaqələri olmasa da, özlərini hüquq müdafiəçisi adlandıran şəxslərin biznesmenin maliyyəsindən faydalanmaq üçün onu siyasi məhbus elan edə biləcəkləri ehtimal edilir. İndiyə qədər Azərbaycan praktikasında belə təcrübələr çox olub. Hakimiyyətdə təmsil olunub, sonradan korrupsiya hallarına, müxtəlif cinayət əməllərinə yol verdikləri üçün həbs edilən iri ranqlı məmurlar bir anda müxalifət düşərgəsinin "qəhrəmanı"na çevriliblər, onların həbsində insan haqlarının pozulması görüntüsü yaratmağa cəhdlər edilib və sonunda da həmin şəxslər siyasi məhbus elan ediliblər.

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı indiki vəziyyətdə H.Abdullayevin siyasi məhbus elan olunması üçün heç bir əsasların olmadığını söylədi:** "Kimsə hazırda analiz etmədən, situasiyanı qiymətləndirmədən, bütün proseslər barədə ətraflı məlumat almadan hər hansı bir hüquq müdafiəçisi və ya özünü hüquq müdafiəçisi adlandıran istənilən şəxs Hüseyn Abdullayevi siyasi məhbus elan etsə, bu düzgün olmayacaq. Siyasi məhbus o şəxsdir ki, həbsində, ona verilən cəzada siyasi motivlər olsun. Hüseyn Abdullayev haqqında ötən dəfə sizə verdiyim açıqlamada bildirmişdim ki, onu ilk dəfə həbs ediləndə niyə azadlığa buraxdılar. Burada yaranan əsas müəmma budur. Çox güman ki, o, üzərinə götürdüyü öhdəliyi pozub. Onu yenə əvvəlki ittihamlar üzrə suçlayırlar. Həmçinin Avropadakı "söyüş müxalifəti"nə dəstək verməkdə günahlandırırlar. Onun öncəliklə cinayəti sübut olunmalıdır. Burada çoxsaylı suallar var. Bu sualların cavabı məhkəmə prosesində tapılacaq. Müşahidələr əsasında bunlar məlum olacaq. Məhkəmə prosesinin monitorinqi aparılmalıdır. Apelyasiya Məhkəməsi də bitəndən sonra məlum olacaq ki, Hüseyn Abdullayev siyasi məhbusdur, ya yox. Çünki ona qarşı müxtəlif yanaşmalar var. Hamımız bilirik ki, vaxtında iqtidarın önəm verdiyi şəxslərdən olub. Mitinqlərdə iştirakçılara zorakılıq etdiyi barədə hər zaman fikirlər səslənir. Bu baxımdan ona siyasi məhbus deməyə heç bir əsas yoxdur. Özü də Hüseyn Abdullayev hələ məhbus deyil, sadəcə, saxlanılıb. İlkin olaraq ittihamlar irəli sürülüb. O zaman məhbus olacaq ki, üzləşdiyi ittihamlar sübut olunsun. Onun məhkəməsində çalışacam ki, iştirak edim. Ondan sonra suallara rahat cavab vermək imkanım olacaq".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Azərbaycan çeçen əsilli boksçunu Ukraynaya verəcəkmi...

## Boksçu Bakıda sərbəst buraxılsa da, taleyi müəmmalıdır

**Ukrayna radasının deputatı Mustafa Nayemə hücum etmiş şəxslərdən biri Azərbaycanda saxlanılsa da, sonradan azadlığa buraxılıb. Öncə məlumat üçün qeyd edək ki, mayın 5-də Ukrayna DİN rəhbəri Arsen Avakov açıqlama verərək bildirmişdi ki, deputata hücum edənlərdən üçü hadisə yerində saxlanılıb və onlar barədə qətimkan tədbiri seçilib:**

"Dördüncü iştirakçı isə hadisədən 20 dəqiqə sonra bilet alaraq, 2,5-3 saatdan sonra Bakıya uçub. Sərhədi keçən zaman onun şəxsiyyəti hələ müəyyən edilməmişdi.

Bununla belə, aidiyyəti qurumlar onun bir neçə maddə üzrə şübhəli bilindiyi barədə məlumatlandırılıb və o, axtarışa verilib. Bu gün o, bizim azərbaycanlı həmkarlarımız tərəfindən saxlanılıb", - deyə DİN rəhbəri bildirib.

**Məsələ ilə bağlı "Yeni Müsavat"a açıqlama verən haqqında bəhs etdiyimiz boksçu Magomed-Amin Saitovun hüquqlarını müdafiə edən Adəm Məmmədov bildirib ki, boksçu mayın 5-də azadlığa buraxılıb:** "Hələ ki onu Ukraynaya vermək barəsində qərar yoxdur. Çünki hələ Ukrayna məhkəməsinin qiyabi həbs qərarı olmalıdır. Onun Ukraynaya verilib-verilməməsi siyasi məsələyə oxşayır. Çünki onlar mətbuata açıqlama verən zaman Rusiyanın adını çəkib bildirirlər ki, bu işdə həmin ölkənin izi var. Hər bir halda onun Ukraynaya verilmə ehtimalı yoxdur. Magomed-Amin Saitov ötən həftənin şənbə günündən etibarən azadlığa buraxılıb".

**Onu da qeyd edək ki, Adəm Məmmədov sosial şəbəkədə daha öncə yazdığı statusunda bildirmişdi ki, bu işin arxasında Ukraynanın daxili işlər naziri, milliyyətçə erməni olan Arsen Avakovun dayanmasına dair məlumatlar var:** "Ukrayna Respublikasında peşəkar boks klubunun prezidenti olan Magomed-Amin Saitov ölkəmizdə keçirilən beynəlxalq boks yarışının təşkilatçısıdır. Bu səbəbdən də respublikamıza gəlib şəxsi işləri ilə əlaqədar Moskva şəhərinə gedən zaman beynəlxalq hava limanında saxlanılıb. Tutulmasına səbəb Ukrayna parlamentinin deputatı ilə aralarında Kiyev şəhərində küçədə anidən baş vermiş mübahisə olub".



Onun verdiyi məlumata görə, iş Azərbaycan Respublikası DİN-in Baş Cinayət Axtarış İdarəsində araşdırılıb.

**Virtualaz.org saytı yazıb ki, Ukrayna Baş Prokurorluğu xalq deputatı Mustafa Nayemin döyülməsində şübhəli bilinən Məhəmməd Saitovun ekstradisiyası ilə bağlı yaxın günlərdə Azərbaycana sorğu verəcək. Bunu "112 Ukrayna"nın efirində Ukrayna baş prokurorunun müavini Yevgeni Yenin deyib.** "Biz cənab Saitovun ekstradisiyası məsələsi ilə məşğuluq. Azərbaycandan olan həmkarlarımızla çox sıx əlaqə saxlayırıq və bu yaxınlarda onlara bildirdik ki, biz Saitovun verilməsini tələb etmək niyyətindəyik. Bununla əlaqədar biz onun saxlanılması və qoruma altına alınması barədə sorğu ilə müraciət etmişdik. Yaxın günlərdə qanunu pozanların verilməsi barədə Avropa Konvensiyasının tələblərinə uyğun olaraq ekstradisiya haqqında da sorğu göndəriləcək", - deyə Y.Yenin vurğulayıb.

Baş prokurorun müavini həmçinin bildirib ki, bir qayda olaraq, bu proses bir neçə ay çəkir.

**"Yeni Müsavat"a məsələnin siyasi tərəflərindən danışan politoloq Elxan Şahinoğlu bildirib ki, əgər ikitərəfli müqavilə varsa, ekstradisiya edilməsində heç bir qəbahət yoxdur:** "Həm də nəzərə almaq lazımdır ki, Ukrayna Azərbaycanın strateji tərəfdaşıdır. Əgər cinayət əməli varsa ekstradisiya etmək olar. Yox, əgər deyildiyi kimi ortada siyasi səbəblər varsa, o zaman bu məsələyə bir müddət baxıla bilər. Hətta Azərbaycan tərəfindən belə olan təqdirdə rədd cavabı da verilə bilər. Nəzərə alaq ki, Avakov orada Ukrayna vətəndaşı olan azərbaycanlıları da heç doğru-dürüst qorumur. Əsas məsələ odur ki, cinayət əməli sübut olunsun. Əgər belə olarsa və məsələ ilə bağlı əldə ciddi sənədlər varsa o zaman boksçunu hüquq-mühafizə orqanlarına vermək olar. Hər halda, bəzi məsələlər nəzərə alınmalıdır. Əlbəttə ki, o dəqiqə təhvil vermək də düzgün deyil. Bizim tərəf bunu araşdırmalıdır və öyrənməlidir ki, Ukrayna tərəfi prosesi necə araşdırıb, hansı faktları var. Ola bilər ki, araşdırmaların nəticəsinə əsasən onun məhkəməsi Bakıda edilər. Bütün hallarda məsələ ciddi şəkildə araşdırılmalıdır. İndiyə qədər Ukrayna ilə bağlı bu cür ekstradisiya hallarının olduğunu xatırlamıram. Ancaq Rusiya ilə əlaqədar bu cür məqamlar baş verib. Ekstradisiya etməyin Azərbaycanın imicinə olan təsirləri barəsində də danışsaq, qeyd edim ki, əgər şəxs cinayət törədib bizə sığınırsa o zaman şəxs həbs olunmalıdır və ekstradisiya edilə bilər. Ancaq heç bir cinayət əməli yoxdursa və şəxs yalnız siyasi səbəblərə görə təqib edilirsə, bu zaman bizə sığınan vətəndaşımızı qorumalıyıq".

❑ **Əli RAİS, "Yeni Müsavat"**

# Aparıcı çağırdığı qonağı təhqir edib aşağılayarsa...

## Jurnalist Könül Cəfərli: "Bunlar reytinqə hesablanmış cəhdlərdir..."



**Məlum olduğu kimi, bu günlərdə teleaparıcı Elçin Əlibəyli verilişinə qonaq çağırdığı müğənni Maral Tahirqızını əvvəlcə təhqir edib, aşağılayıb, daha sonra isə qovub. Məsələ cəmiyyətdə, ictimaiyyətdə heç də birmənalı qarşılanmayıb. Aparıcı bu cür davranışına görə kəskin tənqid edilib, hətta təhqirlərə məruz qalıb.**

Qeyd edək ki, müğənninin təhqir olunaraq efirdən qovulması ilə bağlı videogörüntü hələ veriliş efirə getməzdən əvvəl bir ay öncə sosial şəbəkələrdə yayılmağa başlamışdı. Müğənni bu haqda açıqlama verərək bildirmişdi ki, verilişdə tənqid olunmasına səbəb sosial şəbəkələrdə çoxlu sayda izləyici toplaya bilməsi olub: "Əgər insanlar sizi izləmirsə, deməli, onlar üçün maraqlı deyilsiniz. Günahkar deyiləm ki, məni izləyirlər. Bunu da özləri etiraf edirlər".

Onu da əlavə edək ki, son zamanlarda bir çox televiziya verilişlərində aparıcıların hakim mövqeyində duraraq qonaqlarını aşağılaması, qınaması, təhqir etməsi və ya qovması ilə bağlı olaylarla tez-tez rastlaşırıq. Bütün bunlar cəmiyyətdə qıcıqla qarşılanır, tənqid edilir.

Bəs əslində aparıcı verilişində hansı mövqedə olmalıdır?

**Mövzu ilə bağlı jurnalist Könül Cəfərli "Yeni Müsavat"a danışdı. Jurnalist bildirdi ki, kimliyindən asılı olmayaraq heç bir aparıcı əsla qonağı aşağılaya bilməz:** "Çünki aparıcı mövzunu və kimi dəvət etdiyini bilir. Qonaq çağırıb, təhqir etmək, kobud münasibət sərgiləmək efir mədəniyyətinə ziddir. Verilişin davamlı olması üçün baxılması şərtdir. Çünki şirkətlər baxılan verilişə sponsorluq edirlər. Danılmaz həqiqətdir ki, ciddi adamlarla önəmli mövzuların müzakirəsi tamaşaçı toplamır. İnsan dramı, faciəsi, şou, qalmaqal üzərində köklənən verilişlər həmişə baximlı olur. Odur ki, aparıcılar belə mövzulara can atır, sonunda da kimsə efirə xalatda çıxır, biri şpaqat açır, o biri bədbəxt adamları ağladır, kimsə də Maral Tahirqızını təhqir edir. Bunlar reytinqə hesablanmış cəhdlərdir".

**Könül Cəfərli bildirdi ki, aparıcı hər zaman birtərəf mövqe nümayiş etdirməlidir:** "Ən əsası, mövqe bildirməməlidir. Doğrudur, müəyyən istisnalar var, məsələn, Qarabağla bağlı mövqe bildirə bilər. Maral Tahirqızı kimi insanı dəvət edib reytinq toplamaq, xüsusən də onu aşağılayaraq, daha ağıllı görünmək çirkin bir rəftardır. Televiziya jurnalistikasının öz efir standartları və etik kodeksi var".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 100 (6989) 8 may 2018

# Dünyanın sonu nə vaxt gələcək, səmavi kitablar nə deyir?

## Qiyamətin dəqiq vaxtı bilinməsə də, yaxınlaşmasının əlamətləri haqda bilgilər var...

**Son vaxtlar dünyanın sonu, aqibəti haqqında müxtəlif məlumatlar yayılmaqdadır. Onların arasında daha çox guya Yer kürəsinin yaxın vaxtlarda hansısa naməlum obyektlə toqquşacağı xəbərləri yer alır.**

Məsələn, bu günlərdə məşhur astrofizik Roberto Antezan Yer kürəsinin yaxın yüzillikdə gizli planetlə toqquşacağını bildirib. Onun sözlərinə görə, ölçüləri Mars planetinə bərabər olan, 35 dəqiqə ərzində hər şeyi məhv etmək gücünə malik obyekt Yerə doğru sürətlə yaxınlaşmaqdadır. Alim qeyd edib ki, ölçüləri Mars planeti ilə müqayisə edilən cisim Çilidə güclü teleskopda müşahidə edilib. Həmin obyekt teleskop altında "V" şəklində görünür. Naməlum obyektin içərisində qəribə strukturların olduğu da bəyan edilib.

Dünyanın sonunun gələcəyi haqqında səslənən digər versiyalardan biri də 2021-ci ildə dünyanın buzlaqlaşma dövrünə girəcəyi ilə bağlıdır. Dünya alimlərinin yaydığı məlumata görə, Günəş ləkələrinin azalmağa başlaması onun solar minimum mərhələsinə girməyə hazırlaşdığını göstərir və bu, dünyanın mini buzlaqlaşma çağına girməsinə səbəb ola bilər. Belə ki, Günəş hər 11 ildə bir solar maksimum və solar minimum mərhələsinə girir. Lakin solar minimum müddəti 11 ildən daha uzun olarsa, dünyanı buzlaqlaşma təhlükəsi gözləyir. Deyilənə görə, hazırda Günəş, solar maksimum mərhələsində yerləşir. Amma 2021-ci ildə Günəşin yaydığı istilik azalacaq və buz dövrü başlayacaq. Meteoroloqlar bildiriblər ki, Günəşin fəallığının azalması dünyadakı iqlim və hava temperaturunun dəyişməsinə, bəzi təbiət hadisələrinin artmasına, eləcə də Yer atmosferinin üst təbəqəsinin daha çox zərər görməsinə gətirib çıxaracaq. Bu, eyni zamanda insan orqanizmi üçün təhlükəli ola biləcək bakteriyaların yer üzünə gəlməsi ilə nəticələnəcək. Bu zaman canlı orqanizmlərin kütləvi şəkildə məhv olma təhlükəsi də yaranır.

Buna baxmayaraq, bu günlərdə ingilis alimləri də məlumat yayaraq bildiriblər ki, dünyanın sonuna hələ 1,75 milyon il var. Lakin iqlim dəyişiklikləri üzündən həmin vaxta qədər Yer üzündən artıq canlılar silinmiş olacaq. 1,75 milyon il sonra isə kəskin istiliklər olacaq, hətta okeanların suyu buxarlanacaq.

Bəs dünyanın sonu nə vaxt olacaq?

"Dinə görə gələcəkdən xəbər vermək anlayışı insanları aldatmaqdan və böyük günah sahibi olmaqdan başqa bir şey deyil". Bu sözləri ilahiyyat üzrə fəlsəfə doktoru Əkrəm Həsənov modern.az saytına verdiyi açıqlamasında bildirib. Ümumiyyətlə dini, səmavi kitablarda dünyanın sonu haqda hansı məlumatlar var?

Qeyd edək ki, dünyanın sonu haqda ilk fikri mayalılar verib. Onların yaratdığı təqvimə görə, guya dünyanın sonu 2012-ci ildə olmalı idi. Xristianların dini kitabı olan "İncil"də də bu haqda, "Armagedon günü" qeyd olunub. Dini ehkamlara görə, həmin gün xeyir və



şər qüvvələr arasında son döyüş olacaq, bu tarix də yaxın yüz illikdə baş verəcək. Buddizmdə də rahib Birinci Çinqin sözlərinə görə, bizim tarixlə yaxın yüz illikdə dünyanın sonu olacaq. Bununla bağlı Buddizm kitabında işarələr də var. İslam dininə gəldikdə isə məlum olduğu kimi "Quran"da da qiyamət gününün əlamətlərindən bəhs olunub.

**Mövzu ilə bağlı dini ekspert Kənan Rövşənoğlu "Yeni Müsavat"a danışıb. Ekpsert "Qurani-Kərim" və digər müqəddəs kitablarda dünyanın sonu haqda çoxlu sayda məlumatlar yer aldığını diqqətə çatdırıb:** "Allah-Təala Qurani-Kərimdə dünyanın sonunun şəksiz olacağını insanlara xəbər verir: "Yoxsa sizi əbəs yerə yaratdığımızı və (Qiyamət günü dirilib haqq-hesab üçün) hüzurumuza qaytarılmayacağınızı güman edirdiniz?" (Muminin, 115). Eyni zamanda Allah xəbərdar edir ki, insanlar həmin gün Tanrı qarşısında dünyada etdiklərinə görə hesabat verəcəklər: "Olacağına şübhə edilməyən Qiyamət günü hamınızı (bir yerə), əlbəttə, O toplayacaqdır. Allahdan daha doğrudanışan kim ola bilər?" (Nisa, 87). Və ya başqa bir ayədə Yaradan xatırladır ki, hər bir insan məhz bu gün etdiyi əməllərə görə hesabat verəcək: "Kafir olanlar (öldükdən sonra) əsla dirildilməyəcəklərini iddia edirlər. (Ya Peyğəmbər) De: "Bəli, Rəbbimə and olsun ki, siz mütləq diriləcəksiniz. Sonra da (dünyada) etdiyiniz əməllər sizə (bir-bir) xəbər veriləcəkdir. Bu, Allah üçün çox asandır" (Təğabun-7)".

**Ekspert qeyd edib ki, dini mətnlərdə Qiyamətin baş verəcəyi dəqiq tarix qeyd olunmur:** "Amma hədislərdə həmin günün yaxınlaşmasını bildirən əlamətlər açıqlanır. Məsələn, "Səhih Muslim"də (mötəbər hədis kitablarından biri) İslam peyğəmbərindən (s.ə.s) nəql olunur ki, Qiyamət imansız insanların üzərinə qopar (mömin insanlar qaldıqca Allah qiyaməti gecikdirər). Qiyamətin dəqiq vaxtı göstərilməsə də, nə zaman baş verəcəyi ilə bağlı çoxlu sayda xəbərdarlıq hədisləri var və bütün hədislər bir ana xətt üzərində qurulub: Qiyamət həm də Allahın möhlətinin sonudur. Bu gün həm də cəza, haqq-hesab günü adlandırılır. Həzrət Rəsulallahdan (s.ə.s) nəql olunan hədislərdə dünyada total ədalətsizliyin yayılması, haqsızlıq, insanların Allah dinindən uzaqlaşması, hakimlərin ədalətsizliyi, alimlərin yalançılığı və digər mənfi hadisələr Qiyamətin əlamətləri kimi qeyd olunur. O cümlədən "insanlar arasında elm və etibar azalar, cahillik artar, etibar ediləcək əmin insan tapılmaz. Oyun və çalğı alətlərindən çox istifadə edilər. Qətl və fitnə çoxalar. İnsanlarda bir-birinə qarşı sevgi qalmaz. İslamda buyurulan işlər ayıb sayılıb tərk olunar. (İbn Hacər Məkki, İmam Suyuti)".

**Kənan Rövşənoğlu dini mətnlərdə Qiyamətin təsvirinin verildiyini deyib:** "Qiyamət hadisəsi Allahın üstün mələklərindən olan İsrafilin sur deyilən və şeypur kimi qeyd olunan, ancaq forması bizə məlum olmayan alətə üfürməsi (ərəbcə "nəfxə əl ula", "birinci nəfəs") ilə baş verəcək: "Sur birinci dəfə çalınacaq, Allahın göylərdə və yerlərdə olan istədiyi kimsələrdən *(Cəbrayil, Mikayil, Əzrail və İsrafildən, yaxud ərşi daşıyan mələklərdən və ya müsəlman şəhidlərdən)* savayı dərhal hamı yıxılıb öləcək. Sonra bir də çalınan kimi onlar (qəbirlərindən) qalxıb (Allahın əmrinə) müntəzir olacaqlar. Yerdə güclü zəlzələ baş verər, dəryalar yarılar, dağlar hərəkətə gələr və bir-birinə çırpılaraq qum təpəsi kimi, didilmiş yun kimi dağılaraq fəzada pərakəndə vəziyyətə düşər. "Yer özünəməxsus bir şiddətlə lərzəyə gəlib titrəyəcəyi zaman; Yer öz yükünü çıxardıb atacağı zaman" (Zilzal 1,2). Başlarını asimana dikən uca dağlar silsiləsindən ilğımdan başqa bir şey qalmaz. Qurani-Kərimdə bir qədər obrazlı verilən bu hadisə zamanı Yer kürəsi dağılacağı təsvir olunur. O cümlədən Günəş və ondan milyon dəfələrlə böyük olan ulduzlar sönər. Onların hərəkətindəki qanunauyğunluqlar pozular. O cümlədən Ay və ulduzlar bir-birinə qovuşar, bu dünyanı möhkəm bir tavan kimi əhatə edən asiman çalxalanar və parçalanaraq biri-birindən ayrılar. Onun nizamı qarışar. Səma cisimləri əridilmiş filiz şəklinə düşər və dünyanın fəzası tüstü və buludla dolar. "O gün (Qiyamət günü) dağları (yerindən qoparıb) hərəkətə gətirəcəyik. (O vaxt) yeri düpdüz görəcəksən, (möminləri və kafirləri) bir yerə toplayacaq, onların heç birini (kənarda) qoymayacağıq" (Kəhf,47).

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Sabirabadda dəhşətli qəza - 6 qadın öldü

## Pambıqçıları tarlaya aparan traktor kanala aşıb, ölənlərdən üçü ana və iki qızı, digərləri isə qohumdur





**Sabirabad rayonunda yol-nəqliyyat hadisəsi baş verib. Mil-Muğan bürosunun xəbərinə görə, Şəhriyar kəndində traktorun qoşqusunun su kollektoruna aşması nəticəsində 6 nəfər ölüb. Qəza nəticəsində ölənlərin adları məlum olub.**

APA-nın Mil-Muğan bürosunun xəbərinə görə, ölənlər - 1979-cu il təvəllüdlü Bağırova Elnarə İbrahiməjdər qızı, onun qızları, 2000-ci il təvəllüdlü Bağırova Fatimə Teymur qızı, 1998-ci il təvəllüdlü Bağırova Zəhra Teymur qızı, onların qohumları, 1966-cı il təvəllüdlü İmanova Məlahət Mehbalı qızı, 1989-cu il təvəllüdlü Qasımova Xəyalə Əbülhəsən qızı, 1992-ci il təvəllüdlü Qasımova Günay Tofiq qızıdır.

Traktoru idarə edən Şəhriyar qəsəbə sakini Əjdər İmanov ailə üzvlərini və yaxın qohumlarını pambıq tarlasına işləməyə aparırmış.

Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov Şəhriyar kəndində 6 nəfərin ölümünə səbəb olan qəzaya münasibət bildirib.

**Başçı "Bizim Yol"a açıqlamasında hadisəni törədən şəxsin məsuliyyətə cəlb olunduğunu qeyd edib:**

"Hadisənin səbəbi bəllidir. Bunlar öz torpaqlarını becərmək üçün torpaq sahələrinə gedirmişlər. Bir ailənin üzvləridir. Traktorun lapedində gediblər. Kanalın qırağında lapedin şkulkası çıxıb, aşıb çaya, bu adamlar da kanalın içində lapedin altında qalıb boğulublar. Laped bunların üstünə aşıb. Hadisəni törədən İmanov Əjdər Xudaverdi oğlu rəhmətə gedən İmanova Məlahətin həyat yoldaşıdır. Biri də qaynı arvadıdır. O birilər bunun qızıdı. Hadisə qəfildən baş verib. Sürücünün ailəsidir. Hazırda araşdırma gedir. Həmin vaxtı İmanov Əjdərin oğlu İmanov Xalid də hadisə yerində olub, amma sürən Əjdər olub. Araşdırılacaq və günahkar kimdirsə cəzasını alacaq. Mən də hazırda burada, hüzür yerindəyəm. Dəfn mərasiminin bütün xərclərini icra hakimiyyəti qarşılayacaq".

# YENİ MÜSAVAT

## Son səhifə

*N 100 (6989) 8 may 2018*




## At yarışlarına 18 dollar pul qoydu, 1.2 milyon qazandı

Amerikalı qadın at yarışlarında qoyduğu puldan 65 dəfə artıq qazanıb. Bu haqda ABC News xəbər verib. Adının gizli qalmasını istəyən Teksas sakini 5 atın qalib gəlməsi üçün 18 dollar pul qoyub. Onun uduşu isə 1.2 milyon dollar olub. İppodrom təmsilçisi Reyçel Baqnetto qazanılan məbləğin astronomik olduğunu deyib: "Bu qədər az pul qoyub, astronomik məbləğdə pul qazanmaq bu günə qədər eşidilməmiş bir şeydir. Belə hal bizdə ilk dəfədir baş verir".

Amerikan qadının qalibiyyət seriyası şənbə günü baş tutan yarışdan etibarən başlayıb. İlk dəfə finişə Limuzin Liberal atı çıxıb. Daha sonra Maraud adlı at qalib gəldi. Ardınca Funny Duck adlı at qalib olaraq, hər kəsi təəccübləndirdi. Dördüncü qaçışda qadın təxmin etdi ki, Beach Patrol adlı atın şansı hamısından daha çoxdur. Və nəhayət, finalda yenə də qadının pul qoyduğu Justify adlı at qalib gəldi.

Kentukki Derbi ölkənin ən vacib at yarışı məkanlarından biridir. Tədbirin masştabının böyüklüyünə baxmayaraq, mükafat fondu o qədər də böyük sayılmır.

## Gəlin yanan vertolyotdan sağ çıxdı

Öz toyuna vertolyotla gedən gəlin baş verən yanğın nəticəsində ciddi qəza keçirib. Məcburən yerə enən və daha sonra da partlayan vertolyotdan sağ çıxmağı bacaran qız toyuna çatmaq üçün bütün cəhdlərini davam etdirib və buna nail olub. İnsident San Paul ştatında, Braziliyada baş verib. KİV-də yayılan videoda görünür ki, yerə sürətlə enən vertolyot uzun müddət yerində fırlanır. Stabil vəziyyətini itirən vertolyotun yerə qəfil eniş etdiyi və bir müddət sonra da yandığı üzə çıxıb. "Globo"nun yaydığı məlumata görə, vertolyotda gəlinlə yanaşı, pilot da daxil olmaqla, daha üç nəfər olub. Onların hamısı partlayışdan öncə vertolyotdan enməyə nail olublar və xırda xəsarətlər alıblar. Amma toy sahibəsi olan qadın ən kiçik bir zədə belə almadan qurtulub. Bunu onun gəlin şansı adlandıranlar da olub. Hadisə yerinə xilasedicilər, yanğınsöndürənlər və həkimlər gəliblər. Tədbiri təşkil edən kampaniya açıqlama verib ki, bu qəza toy mərasiminin keçirilməsinə hər hansı maneə yaratmayıb. Belə ki, gəlin bu əlamətdar günə özünü çatdırıb. Nəticədə isə olduqca şən bir mərasim keçirilib.



## Uşaq sığınacaq evi açan qadını həbs etdilər



Çində özəl uşaq evinin sahibini həbs ediblər. 118 uşağı övladlığa götürən və onların baxımına milyon yuanlar xərcləyən qadını yetimlərin pulunu mənimsəməkdə ittiham edirlər. Li Lijuan 1996-cı ildən uşaqları övladlığa götürməyə başlayıb. 2007-ci ildə isə "Sevgi kəndi" adlanan uşaq sığınma evini yaradıb. Yerli hakimiyyət orqanlarının verdiyi məlumata görə, özünü milyoner adlandıran qadın bu uşaq evi üçün xeyriyyə pullarını öz şəxsi məqsədləri üçün istifadə etməyə başlayıb: daşınmaz əmlak, bahalı maşınlar alıb və bankdakı hesabında külli miqdarda vəsait olub.

Qadın həbs olunan vaxt sığınacaq evində 74 uşaq tərbiyə alırdı. Oradakı "yetimlərdən" bəzilərinin valideynləri də vardı. Amma Lijuan valideynlərinin adından istifadə edərək, uşaqların müavinətlərini də alırdı. Sığınacaq evi bağlanıb və 74 yetim də lazımi qulluq, qayğı ilə təmin olunub. Polis şübhələnir ki, sığınacaqda oğurlanmış uşaqlar da ola bilər. Buna görə də oradakı hər kəsdən qan nümunələri və barmaq izləri götürülüb. Bu yolla da milli bazada itmiş uşaqlarla bağlı göstəricilərlə bunun nə dərəcədə uyğun gəldiyi üzə çıxarılacaq.

Hüquq müdafiəçisi, uşaq və qadın hüquqlarının müdafiəsi üzrə ixtisaslaşmış Yan Xun bildirib ki, övladlığa götürmə ilə bağlı nəzarət gücləndirilməlidir. O, eyni zamanda Çin KİV-lərini xeyriyyə təşkilatları ilə bağlı daha diqqətli olmağa və onlarla bağlı araşdırmalar aparmağa çağırıb: "Onların pozitiv obrazını yaratmazdan əvvəl maksimum diqqətli olun".

## Qoroskop




**QOÇ** - Bir qədər mübahisəli gündür. Yaxınlarınızla, həmçinin ailə üzvlərinizlə (xüsusən yaşlılarla) mülayim davranın. Axşamı bütünlüklə gəzinti və qonaqlıqlara həsr edin ki, rahatlıq tapasınız.

**BUĞA** - Bütün işlərinizi saat 15-ə qədər yekunlaşdırmağa çalışın. Belə ki, ideyalarınızı həyata keçirmək üçün sonrakı ərəfə sərfəli deyil. Əksinə, mübahisəli hallar baş verə bilər. Sənədləşdirmə işlərini təxirə salın.

**ƏKİZLƏR** - Olduqca məhsuldar gündür. Üzərinizə düşən çoxsaylı vəzifələrdən qorxmayın. Əksinə, əzmkarlığınızı artırmaqla nəzərdə tutduğunuz işlərin həllini sürətləndirin. Nəqliyyatda ehtiyatlı olun.

**XƏRÇƏNG** - Sağlıq durumunuzu nəzarətdə saxlaya bilsəniz, digər məsələlərdə elə bir çətinliyiniz olmayacaq. Əməkdaşlıq istiqamətində ürəkaçan gedişlər mümkündür. Büdcənizdə irəliləyiş də gözlənilir.

**ŞİR** - Olduqca düşərli gündür. Rastlaşdığınız hər bir hadisə ürəyinizcə olacaq. Hər kəslə xoş ünsiyyət qurmağa çalışın. Axşama yaxın sevindirici xəbərlər eşidə bilərsiniz. Kiçikyaşlılara diqqət ayırın.

**QIZ** - Çoxları ilə müqayisədə bu təqvimdə sizin büdcəsinizdə daha çox artım gözlənilir. Odur ki, gəlir gözlənilən bütün obyektlərə baş çəkin. Aldığınız yeni təkliflərə başdansovdu yanaşmayın.

**TƏRƏZİ** - Göstəricilərə inansaq, bu gecə narahat yatmısınız. Odur ki, gün ərzində ümumi süstlük sizi tərk etməyəcək. Bu amili nəzərə alıb yaxşıca dincəlin. Dostların əhatəsində olmağa çalışın.

**ƏQRƏB** - Riskli hərəkətlərə yol verməyin. Maksimum neytrallıq nümayiş etdirin. Hər dedi-qoduya tələsik reaksiya verməyin. Saat 16-19 arası bütün günah işlərdən çəkinin, yalan vəd verməyin.

**OXATAN** - İxtiyarınızda olan bu təqvimin nahara qədərki dövrü gərgin tərzdə davam edəcək. Sonrakı saatlarda ikitərəfli sövdələşmə üçün səmərəli olacaq. Qida rejiminə diqqət yetirin. Qazancınız da olacaq.

**OĞLAQ** - Astroloji göstəricilər yalnız savablar göstərmək üçün münasib vaxt olduğunu bəyan edir. Odur ki, fəaliyyətə ara verib, gəzinti və səfərlərə çıxmağa çalışın. Həmsöhbətlərinizlə doğru-dürüst danışın.

**SUTÖKƏN** - Mənfi enerjili Ay bürcünüzdə olduğu üçün ilk növbədə səhhətinizə fikir verməlisiniz. Ağır iş görmək, piyada çox gəzmək sizə zərərdir. Çalışın ki, istənilən məsələdə ürəyinizin səsinə qulaq asasınız.

**BALIQLAR** - Son vaxtlar Göy qübbəsi əsəblərinizin qaydasında olmadığını göstərir. Bunu nəzərə alıb sakit bir guşəyə çəkilin. Ulduzlar bunun üçün şəxsi büdcənizi də artırmağa hazırdır. Təki siz istəyəsiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Depressiyaya girdi, 6 dil öyrəndi



Türkiyənin İzmit şəhərində yaşayan Qamze Qazeteciyə 2011-ci ildə depressiya diaqnozu qoyulub. Bilecik Universiteti Turizm fakültəsinin məzunu olan Q.Qazetecinin həyatı o gündən etibarən dəyişib. Turizm bölümündə oxuduğu üçün xarici dil öyrənməli olan, depressiya diaqnozu qoyulandan sonra illərlə evdən bayıra çıxmadığını deyən Qamze mediaya açıqlamasında bildirib ki, depressiyaya girəndən sonra xarici dillərə marağı artıb. Öz-özünə 6 dil öyrənən Qamze xarici dil kitablarından da qaynaq olaraq istifadə edib. Nəticədə ingilis, rus, ispan, italyan, portuqal dillərində yüksək səviyyədə, Koreya dilində isə başlanğıc səviyyəsində danışa bilir. Gənc qızın hədəfi 20 dil öyrənməkdir: "Depressiya səviyyəmdə azalma yaşandı. Qabiliyyətlərimi kəşf etdim. İndi tələbələrə dərs keçirəm".

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100